# Aİ BİZNES MÜHİTİ HESABATI

## AZƏRBAYCAN 2021

**6-CI BURAXILIŞ**



Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



**MƏSULİYYƏTDƏN İMTİNA:**
Bu buraxılış Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu sənədin məzmunu heç bir halda Avropa İttifaqının, üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin rəsmi mövqeyini əks etdirmir. Bu sənəd və buraya daxil olan hər hansı bir məlumat hər hansı bir ərazinin statusu və ya suverenliyinə, beynəlxalq sərhədlərin müəyyənləşdirilməsinə və hər hansı bir şəhər və ya ərazinin adına xələl gətirmir.

# MÜNDƏRİCAT


4 **ÖN SÖZ**

6 **GİRİŞ**

7 **ƏHATƏ DAİRƏSİ**

9 **ƏSAS NƏTİCƏLƏR**

12 **XÜLASƏ**

15 **FƏSİL 1: Biznes və investisiya mühiti 2021**

- 1.1. Makroiqtisadi göstəricilər 15
- 1.2. Yerli biznes mühiti: sektorial göstəricilər 18
- 1.3. Pandemiya dövründə biznesin bərpası 22
- 1.4. İnvestisiya mühiti və imkanlar 24

29 **FƏSİL 2:** Azərbaycanda həyata keçirilən islahatlar

- 2.1. Yerli islahatlarda irəliləyiş 29
- 2.2. Avropa şirkətləri tərəfindən gözlənilən əlavə təkmilləşdirmələr 33

39 **FƏSİL 3:** Qlobal strateji prioritetlərə uyğun yerli tendensiyalar

- 3.1. Dayanıqlı və yaşıl iqtisadiyyat 39
- 3.2. Özəl sektorun rəqəmsallaşdırılması 42
- 3.3. Qadınlar və kişilər üçün iqtisadi imkanlara bərabər çıxış 44

46 **ƏLAVƏ 1:** 2021-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunun nəticələri

58 **ƏLAVƏ 2:** Aİ dəstəyi çərçivəsində biznes üçün imkanlar

62 **ƏLAVƏ 3:** Azərbaycanda PTT-nin transformasiyası

65 **ƏLAVƏ 4:** Azərbaycanda işçilər arasında gender fərqi

66 **Metodologiya**

67 **Akronim və abreviaturalar**

69 **Nəşr**

70 **İstinadlar**

# ÖN SÖZ



## Peter MİXALKO

Səfir-Nümayəndəliyin rəhbəri

AVROPA İTTİFAQININ AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİ

Aİ Biznes Mühiti Hesabatı Azərbaycan 2021 qarşısına Aİ-Azərbaycan iqtisadi əməkdaşlığındakı nailiyyətləri və çətinlikləri daha yaxşı başa düşmək və biznes mühitini daha da yaxşılaşdırmaq məqsədi qoyan altıncı nəşrdir.

Çətin keçən 2021-ci il ərzində Avropa İttifaqı Azərbaycanla 15,2 milyard ABŞ dollarlıq ticarət dövriyyəsi (Azərbaycanın ümumi ticarət dövriyyəsinin 45%-i) və Azərbaycan ixracının 51%-ni təşkil edən əsas ticarət tərəfdaşı olaraq qaldı. Son iki il ərzində hamımız həyat tərzimizə təsir edən, müxtəlif bazar dəyişkənlikləri yaradan, bizneslərə və daha bir çox şeyə təsir edən qlobal pandemiya ilə mübarizə apardıq. Beynəlxalq əməkdaşlıq və vaksinasiya ilə bağlı güclü irəliləyiş sayəsində vəziyyətin və iqtisadi fəaliyyətin yenidən normallaşdığını görmək çox xoşdur. Aİ və Azərbaycan bu sahədə də sıx əməkdaşlıq ediblər ki, bu da bizim güclü tərəfdaşlığımızın daha bir nümunəsi oldu.

Ən böyük ticarət tərəfdaşı və ən böyük ixrac istiqaməti olan mövqeyi ilə yanaşı, Aİ və onun üzv dövlətləri həm də Azərbaycana ən böyük xarici investisiya mənbəyidir. Avropalı investorların fəaliyyəti pandemiyadan sonra iqtisadi və sosial dirçəliş üçün daha bir mühüm amil olacaq. İqtisadi və İnvestisiya Planı ilə Aİ dayanıqlı inkişafı təşviq etmək, dövlət və özəl sektor investisiyalarından istifadə etmək üçün qarışıq maliyyə və zəmanətlər daxil olmaqla, spesifik Aİ maliyyə alətlərindən istifadə edərək pandemiyadan sonrakı bərpanı dəstəkləməyə başladı. Plan ölkənin prioritetlərini, ehtiyaclarını və ambisiyalarını nəzərə almaqla tərəfdaş ölkələrlə birgə müəyyən edilmiş real nəticələrə malik konkret prioritet layihələri formalaşdıracaq bir sıra qabaqcıl təşəbbüslərdən ibarətdir. **"Avropa Komandası"** yanaşması ilə Aİ və onun üzv dövlətləri Azərbaycanla əməkdaşlıq proqramlarını ictimai səhiyyə sisteminin gücləndirilməsi, pandemiyanın sosial-iqtisadi nəticələrinin yumşaldılması, insan kapitalına investisiyaların artırılması kimi ən təcili ehtiyacların həllinə kömək etməsi üçün uyğunlaşdırmağa davam edir.

2021-ci il güclü tərəfdaşlığımızı və keyfiyyətimizi artırmaqla ikitərəfli münasibətlərdə ən yüksək səviyyədə intensiv fəallıq gətirdi. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Komissarı Oliver Varhelinin 2021-ci ilin yayında Azərbaycana səfərləri, həmçinin Prezident İlham Əliyevin 2021-ci ilin dekabrında Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı sammitində iştirakı dialoqumuza güclü təkan verdi. Aİ və Azərbaycan münasibətlərimiz üçün yeni hüquqi baza üzərində işi davam etdirir – Aİ-Azərbaycan arasında yeni əhatəli ikitərəfli saziş bizim tərəfdaşlığımızı daha yüksək səviyyəyə və keyfiyyətə gətirəcək. Eyni zamanda, Aİ Azərbaycanda aparılan bərpa və yenidənqurma işlərində iştirak etməyə, Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və rifahın bərqərar olmasına töhfə verməyə, tərəfləri barışdırmaq səylərini dəstəkləməyə hazır olduğunu göstərir. Aİ minaların təmizlənməsinə də böyük maliyyə dəstəyi verir və o, sərhədlərin delimitasiyası və demarkasiyası prosesində maliyyə və texniki dəstək verməyə hazırdır.

Aİ Biznes Mühiti Hesabatının bu altıncı nəşri təkcə cari biznes mühitinin müstəqil qiymətləndirilməsini təmin etmir, həm də əvvəlki illərlə müqayisədə perspektiv dəyişiklikləri görməyə imkan verir. Keçən il biz ilk dəfə Avropa Yaşıl Razılaşması və Avropada rəqəmsal transformasiya tendensiyalarını nəzərə aldıq. Biz bu yanaşmanı davam etdirdik və 2021-ci ildə Azərbaycanda biznes üçün yaşıl və rəqəmsal imkanlar haqqında icmalı daxil etdik.

Biz Avropa şirkətlərinin Azərbaycanın regionlarına biznes missiyalarının təşkili ilə Biznes Forumu Bakıdan kənara da genişləndirdik və bunu davam etdirməkdə çox maraqlıyıq.

Bu il Aİ Nümayəndəliyi bu Hesabatın hazırlanmasında İtaliya-Azərbaycan Ticarət Palatası (ITAZERCOM), Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası (AFchamber), COWI Belçika və InvestBaku ilə əməkdaşlığı davam etdirdi. AZPROMO ilə uzun illərdir davam edən əməkdaşlığımızdan da çox məmnunuq.

Aİ və Azərbaycan 2021-ci ildə əməkdaşlığı əhəmiyyətli dərəcədə intensivləşdirdi, genişləndirməyə və ikitərəfli münasibətləri gücləndirməyə davam etdi. 2022-ci ildə müsbət nəticələr əldə etmək üçün səylərimizi artıracağıq.

Xoş oxumalar!

Hörmətlə,

*Peter MİXALKO*



## Zibər HÜSEYNOVA

İdarəedici Direktor

AZƏRBAYCAN-FRANSA TİCARƏT VƏ SƏNAYE PALATASI (AFchamber)

Son onillikdə qlobal iqtisadiyyatın yüksək dinamikliyi milli siyasətlərin ona vaxtında uyğunlaşmasını tələb edir. Biznesin çiçəklənməsinə imkan verəcək milli biznes mühitinin yaradılması yalnız dövlət-özəl sektor dialoqu və onların əməkdaşlığı vasitəsilə mümkündür.

Aİ Biznes Mühiti Hesabatı nəşr olunduğu illər ərzində Azərbaycandakı Avropa biznes ictimaiyyətinin fikir, ehtiyac və təkliflərini dövlət orqanları və digər tərəfdaşlarımızla bölüşmək və təkmilləşdirmək üçün vacib alətə çevrilib. Keçən ilki nəşr özəl və dövlət sektorları arasında səmimi fikir mübadiləsi ilə nəticələndi və daha böyük iqtisadiyyata fayda verən konkret siyasət dəyişikliklərinə səbəb oldu. Ümid edirik ki, cari hesabat bu yaxşı təcrübəni davam etdirəcək və onu daha da irəli aparacaq.

Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası (AFchamber) Aİ-Azərbaycan Biznes Forumunun bir hissəsi olmaqdan və bu il də Aİ Biznes Mühiti Hesabatının hazırlanmasına töhfə verməkdən qürur duyur. Sorğuda və müsahibələrdə iştirak edən bütün şirkətlərə, hesabatın həmmüəllifləri COWI Belçika, InvestBaku və İtaliya Ticarət Palatasına bu tədqiqatın hazırlanmasında dəyərli fəaliyyətlərinə görə təşəkkür edirəm.

Hörmətlə,

*Zibər HÜSEYNOVA*



## Manuela TRALDİ

Prezident

İTALİYA-AZƏRBAYCAN TİCARƏT PALATASI (ITAZERCOM)

Bir il sonra. Qarşıda nələr var? 2021-ci ildən başlayaraq qlobal biznes ictimaiyyəti post-pandemiya iqtisadiyyatlarında yeni geosiyasi ssenarilər, çağırışlar və imkanlarla üzləşdi. Bu ümumi kontekstdə 2020-ci il sülh müqavilələrinin konsolidasiyası ilə birgə Azərbaycanda yaranan bərpa şəraiti avropalı investorlar üçün yaşıl layihə imkanları və işğaldan azad edilmiş ərazilərin yenidən qurulması planları, ölkənin strateji enerji və nəqliyyat mərkəzinə çevrilməsi ilə bağlı geniş potensialın açılması ilə konkret şəkil almağa başlayıb. Bununla yanaşı, 31 dekabr 2021-ci ilə qədər CQD-Trans-Adriatik Boru Kəməri ilə nəql edilən 8 milyard kubmetrdən çox qaz ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin dəstəklənməsində öz rolunu gücləndirib. Buna görə də, mövcud olan investisiya və biznes mühitinin Azərbaycanda fəaliyyət göstərən Avropa bizneslərinin baxışı və gözləntiləri ilə qiymətləndirilməsi və təhlili gələcək iqtisadi ssenarilər haqqında dəyərli fikir verə bilər.

ITAZERCOM COWI Belçika, InvestBaku və Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası ilə birlikdə 2020-2022-ci illər üzrə Aİ-Azərbaycan Biznes Forumunun tərəfdaşı və Azərbaycan üzrə Aİ Biznes Mühiti Hesabatının 6-cı nəşrinin həmmüəllifi olmaqdan məmnundur və qürur duyur, sadiqlik və əməkdaşlığa görə təşəkkür edirik. Bu fürsətə görə Aİ-nin Azərbaycandakı Nümayəndəliyinə və dəyərli əməkdaşlığa görə AZPROMO-ya minnətdarlığımızı bildirirəm.

Bütün çətinliklərə baxmayaraq, bu il həmişəkindən daha çox bu hesabata öz dəyərli və əvəzolunmaz töhfələrini verməyə davam edən bütün iştirakçı şirkətlərə və respondentlərə təşəkkür edirəm. Biz 2022-ci ildə Aİ-Azərbaycan Biznes Forumunun tədbirlərini dəstəkləməyə hazırıq və səbirsizliklə gözləyirik!

Hörmətlə,

*Manuela TRALDİ*

# GİRİŞ

Bu hesabat 2016-cı ildən bəri Azərbaycanda Avropa İttifaqı tərəfindən maliyyələşdirilən **"Aİ-Azərbaycan Biznes Forumu"** çərçivəsində hazırlanan illik nəşrdir. 2020-2022-ci illər ərzində bu tapşırıq COWI Belçika ilə İtaliya-Azərbaycan Ticarət Palatası, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası, InvestBaku İnvestisiya Agentliyinin tərəfdaşlığı və Azərbaycan İqtisadiyyat Nazirliyinin tərkib hissəsi kimi AZPROMO-nun əməkdaşlığı ilə həyata keçirilir.

Bu hesabat Aİ-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin Tapşırıq meneceri Ülviyyə Abdullayevanın supervayzerliyi ilə "Aİ-Azərbaycan Biznes Forumu"nun komandası tərəfindən hazırlanmışdır. Bu hesabatın əsas müəllifi yerli konsultantlar olan KOB üzrə ekspert Gülnarə Məmmədova və Hüquq üzrə ekspert Sevil Yəhyayevanın dəstəyi ilə Komanda rəhbəri Dr. Boqdana Aleksandrova-Efedir. Tədqiqata dəstək AFchamber-in İdarəedici direktoru Zibər Hüseynova, ITAZERCOM-un prezidenti Manuela Traldi, Bazar araşdırması üzə ekspertlər Aygün Əliyeva və Türkan Devrijova tərəfindən verilib. Layihə COWI Belçikanın Bölmə Rəhbəri Natalia Cardona və Layihə Meneceri Fabio Montanari tərəfindən idarə edilib. 2020-2022-ci illər üçün keyfiyyətə nəzarət Ecorys tərəfindən həyata keçirilir.

"Aİ-Azərbaycan Biznes Forumu" effektiv koordinasiya və məlumat dəstəyi üçün Aİ-nin Azərbaycandakı Nümayəndəliyi, Aİ üzv dövlətlərinin Azərbaycandakı səfirliklərinə, Avropa Yenidənqurma və İnkişaf Bankına (AYİB), Avropa İnvestisiya Bankı (AİB), Avropa Təlim Fondu (ATF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT); Şərq Tərəfdaşlığı (ŞT) regional təşəbbüsləri: EU4Business, EU4Climate, EU4Digital, EU4Energy, EU4Environment; ikitərəfli iqtisadi əməkdaşlıq təşkilatları: "Advantage Austria", Azərbaycan-Bolqarıstan Ticarət və Sənaye Palatası, və İtalya Ticarət Komissiyasına (I.C.E) təşəkkürünü bildirir.

## Nəşr haqqında

Hesabatın məqsədi Azərbaycanın biznes mühitindəki ən son tendensiyaları Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinin perspektivindən əks etdirməkdir. 2021-ci il nəşri biznes və investisiya mühiti, pandemiya zamanı biznesin bərpası və investorların cəlb edilməsi, kiçik və orta bizneslərin (KOB) gücləndirilməsinə yönəlmiş yerli islahatların icmalı kimi mühüm mövzulara həsr olunub. Hesabatın xüsusi diqqəti dayanıqlı və yaşıl iqtisadiyyatın inkişafı, özəl sektorun rəqəmsallaşdırılması, kişilər və qadınlar üçün iqtisadi imkanlara bərabər çıxış kimi qlobal strateji prioritetlərə uyğun olaraq ölkədə baş verən son təkmilləşdirmələrə yönəlib.

Sorğunun əsas hədəf qrupuna Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətləri, yəni Aİ və EFTA ölkələrinin və Böyük Britaniyanın nümayəndələri daxildir. Biznes fəaliyyətlərinin əsas istiqaməti Aİ ilə əməkdaşlıqla bağlı olan Azərbaycan şirkətləri də tədqiqatda iştiraka dəvət olunub. Hesabatda təqdim olunan nəticələr illik Aİ Biznes Mühiti Sorğusunun və şirkət sahibləri və top-menecerləri ilə aparılan üzbəüz müsahibələrin nəticələrinə əsaslanır.

## 139 onlayn cavab, 27 müsahibə

Aİ Biznes Mühiti Sorğusu 2021-ci ilin oktyabr-noyabr aylarında keçirilib və bu tədqiqat çərçivəsində əvvəllər əldə olunmayan rekord sayda cavab toplanılıb. Sorğuda bu tədqiqat üçün ənənəvi olan biznes, investisiya mühiti, davam edən islahatlar və biznes mühitinə aid olan digər mövzulara həsr olunmuş suallar yer alıb. Sorğudan əlavə, kənd təsərrüfatı, tikinti və mühəndislik, konsaltinq, İKT, neft-qaz, turizm və otelçilik, nəqliyyat və logistika və digər sektorların nümayəndələri ilə 27 ikitərəfli müsahibə aparılıb.

## 2021-ci il sorğusunun iştirakçıları:

Sorğuda iştirak edən şirkətlərin 90%-i KOB-lardır. Müəssisələrin əksəriyyəti Azərbaycanda Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) (58%) və ya nümayəndəlik ofisləri (31%) və 5 ildən çoxdur ölkədə mövcud olan şirkətlər (77%) kimi fəaliyyət göstərir.

## 24 ölkə

“Aİ Biznes Mühiti Hesabatı Azərbaycan 2021” 20 Aİ üzv dövləti, 2 EFTA üzv ölkəsi, Böyük Britaniya və Azərbaycan daxil olmaqla ümumilikdə 24 ölkənin nümayəndələrinin fikirlərini əks etdirir.

# ƏHATƏ DAİRƏSİ

| | | | | | |
|---|---|---|---|---|---|
| **Fransa**<br>16%/22 | **İtaliya**<br>14%/19 | **Almaniya**<br>13%/18 | **Azərbaycan**<br>11%/15 | **Böyük Britaniya**<br>11%/15 | **Niderland**<br>5%/7 |
| **Danimarka**<br>4%/6 | **Polşa**<br>4%/6 | **İsveçrə**<br>3%/4 | **Avstriya**<br>2%/3 | **Belçika**<br>2%/3 | **Xorvatiya**<br>2%/3 |
| **Çex Respublikası**<br>2%/3 | **Estoniya**<br>1%/1 | **Finlandiya**<br>1%/1 | **Macarıstan**<br>1%/1 | **Litva**<br>1%/1 | **Malta**<br>1%/1 |
| **Norveç**<br>1%/1 | **Portuqaliya**<br>1%/1 | **Rumıniya**<br>1%/1 | **Sloveniya**<br>1%/1 | **İspaniya**<br>1%/1 | **İsveç**<br>1%/1 |

**ÜMUMİ: 100% / 139**









## 19 sektor

Respondentlər iqtisadiyyatın 19 sektorunu təmsil edib. Ən güclü təmsilçiliyi konsaltinq və audit; dağ-mədən, neft və qaz; tikinti və mühəndislik; nəqliyyat və logistika; topdan və pərakəndə ticarət; İKT; turizm və otelçilik sahələri nümayiş etdirib.



# ƏSAS NƏTİCƏLƏR

## BİZNES MÜHİTİ 2021

**COVID-19 pandemiyası** biznes mühitinə ən güclü təsir göstərən amil olaraq qalır.

### FAKTORLAR:

**...keçən ilə nisbətən daha AZ TƏSİRƏ MALİK olan:**

- Neft qiymətlərinin qeyri-sabitliyi
- Qeyri-müəyyən bazar inkişafı
- İslahatların yavaşlaması riski

**...keçən ilə NİSBƏTƏN DAHA ÇOX təsirə malik olan:**

- İxtisaslı kadr çatışmazlığı
- Gömrük nəzarəti

### ƏSAS GÖSTƏRİCİLƏR

- Biznes 2021-ci ildə milli iqtisadiyyatdakı vəziyyəti **qənaətbəxş** kimi qiymətləndirir.
- **Şirkətlərin 80%-i** öz biznesləri üçün yenidən Azərbaycanı seçməyə hazırdır.
- **53%-i** biznesini daha da genişləndirməyi planlaşdırır.
- **37%-i** mövcud potensialları çərçivəsində fəaliyyət göstərməyi planlaşdırır.

### SEKTORİAL GÖSTƏRİCİLƏR

- **Ən nikbin sektorlar:** İKT, Tikinti və mühəndislik, Nəqliyyat.
- **Neytral sektorlar:** Dağ mədən, neft və qaz.
- **Pessimist sektorlar:** Turizm və otelçilik.

---

- "Zəif, orta və ya güclü" şkalası üzrə respondentlər **mövcud dövlət dəstəyini** orta səviyyədən bir qədər yuxarı qiymətləndirib.

- **Dövlət dəstəyini ən çox hiss edən sektorlar:** Turizm və otelçilik, dağ mədən, neft və qaz.
- **Dövlət dəstəyini ən az hiss edən sektorlar:** İKT.

---

- **Yerli biznes mühitinə baxış və dövlət orqanlarının davranışı** nisbətən neytral qalır.

- Bütün sektorlar bu sektorlar üzrə oxşar fikirlər irəli sürüb.

## PANDEMİYA DÖVRÜNDƏ BİZNESİN BƏRPASI

**52%** — Şirkətlərin **52%-i** pandemiyadan əvvəlki göstəricilərə çatıb və ya tezliklə çatmağı planlaşdırır.

**88%** — Şirkətlərin **88%-i** öz işçi heyəti arasında vaksinasiyanı fəal şəkildə təbliğ edir və ya dəstəkləyir.

Şirkətlərin **12%-i** əhəmiyyətli dərəcədə təsirlənmiş olaraq qalır.

**47%-i** pandemiyanın məşğulluq və iş şəraitinə mənfi təsirinin qaldığını təsdiqləyir.

**91%-i** pandemiya ilə əlaqədar məhdudiyyətlər yenilənəcəyi təqdirdə təsirlənəcək.

**Biznes ən həssas olaraq qalır:**

- **46%** İşçi heyəti üçün distant işə
- **36%** Beynəlxalq nəqliyyat əlaqələrində ləngimə və ya dayandırılmasına
- **29%** İnsanların toplaşmasına qoyulan məhdudiyyətlərə

## İNVESTİSİYA MÜHİTİ 2021

Azərbaycanda **siyasi və sosial sabitlik** investorlar tərəfindən ən çox qiymətləndirilən amil olaraq qalır.

**Ən təkmilləşdirilmiş amillər:**
- Biznes etikası
- Korrupsiyanın aradan qaldırılması üçün tədbirlər
- PTT keyfiyyəti

**Mənfi dinamikası olan amillər:**
- Qanunun aliliyi
- Gömrük rəsmiləşdirilməsi prosedurları
- Gömrük tarifləri

### Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni fürsətlər

Avropa şirkətlərinin **54%-i** investisiyalar üçün iqtisadi rayonları nəzərə almağa hazırdır.

Şirkətlərin **14%-i** artıq investisiya layihələri istiqamətində işə başlayıb.




### İnvestorlar üçün cəlbedici olan İLK 3 istiqamət:

- MÜLKİ TİKİNTİ
- ALTERNATİV ENERJİ VƏ YAŞIL LAYİHƏLƏR
- NƏQLİYYAT İNFRASTRUKTURU

## YERLİ İSLAHATLAR

**TƏKMİLLƏŞDİRİLMİŞ İSLAHATLAR:** ASAN · Elektron vergi · DOST mərkəzləri · KOBİA · Miqrasiya Xidməti

**DAVAM EDƏN İSLAHATLAR:** E-gömrük və Yaşıl Dəhliz · PTT islahatları

**DAHA ÇOX PRİORİTETLƏŞDİRMƏ TƏLƏB EDƏNLƏR:** İnvestorlar üçün qanunun aliliyi · Bizneslər üçün maliyyəyə çıxış · Dövlət satınalmalarının şəffaflığı

## QLOBAL STRATEJİ PRİORİTETLƏRƏ UYĞUN TENDENSİYALAR

### DAYANIQLI VƏ YAŞIL İQTİSADİYYAT

Şirkətlərin **85%-İ** ekoloji mədəniyyət prinsiplərini tətbiq edir

**Müəssisələr tərəfindən həyata keçirilən İLK 3 təcrübə:**
1. Enerji cəhətdən səmərəli texnologiyalar (34%)
2. Emissiyaların azaldılması (34%)
3. Təkrar emal edilə bilən materiallardan istifadə (32%)

**Özəl sektorun "yaşıllaşdırılması" üçün İLK 3 mexanizm:**
1. Maliyyə dəstəyi (56%)
2. Ekoloji tənzimləmələr (40%)
3. Yaşıl məhsullara artan tələbat (36%)

### ÖZƏL SEKTORDA RƏQƏMSALLAŞDIRMA

**Effektiv biznes rəqəmsallaşdırılması üçün əsas prioritetlər:**
1. İT infrastrukturu
2. Rəqəmsal bacarıqlar
3. Kibertəhlükəsizlik

**Yerli İT infrastrukturunun daha da təkmilləşdirilməsi üçün 3 ƏSAS prioritet:**
1. İnternetin sürəti və keyfiyyəti (76%)
2. İnternet provayderlərinin şərtləri (48%)
3. Kadrların rəqəmsal bacarıqları (40%)

### QADINLAR VƏ KİŞİLƏR ÜÇÜN İQTİSADİ İMKANLARA BƏRABƏR ÇIXIŞ

Avropalı investorlar yerli həmkarları ilə müqayisədə ənənəvi olaraq kişilərin üstünlük təşkil etdiyi sektorlara daha çox **qadın işçi** cəlb edir.

Şirkətlərdə işçilərin **40%-Nİ** qadınlar təşkil edir.

Avropa şirkətlərinin **20%-DƏN** çoxunda qadınlar yuxarı vəzifələrdə təmsil olunur.

**Qadınların ən çox təmsil olunduğu İLK 3 vəzifə:**
1. Administrativ işçi heyəti (79%)
2. Satış və marketinq (48%)
3. Orta səviyyəli menecerlər (39%)



# XÜLASƏ

Ötən ilki təlatümlərdən sonra Azərbaycanın iqtisadi və siyasi mühiti 2021-ci ildə daha stabil və proqnozlaşdırıla bilən yola qayıtdı. İllik Aİ Biznes Mühiti Sorğusu müəyyən edib ki, Avropa şirkətləri bu il yerli iqtisadiyyatın yaxşılaşdığını görür və onun fəaliyyətini qənaətbəxş hesab edir ("zəif", "qənaətbəxş" və ya "güclü" şkalasında). Əksər göstəricilər şirkətlərə gələcəyə daha əminliklə və nikbinliklə baxmağa imkan verən **biznes mühitinin ümumi bərpasına** dəlalət edən müəyyən irəliləyişləri ortaya qoyur. Bu il respondentlərin yarısından çoxu (53%) qeyd edir ki, onların gələcək genişlənmə planları var, 37%-i isə eyni potensialda fəaliyyət göstərməyi planlaşdırır. Ötən ilki nəticə ilə müqayisədə Avropa şirkətlərinin 80%-i öz biznes əməliyyatları üçün yenidən Azərbaycanı seçməyə hazırdır.

Qeyri-neft sektorları ölkənin gələcək iqtisadi diversifikasiyası üçün vacib olaraq qalıb və karbohidrogen sektoruna nisbətən keçən ilki təlatümlərdən daha az təsirlənib. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da **İKT və nəqliyyat** sahəsində fəaliyyət göstərən bizneslər son illər ərzində inkişaf edib və bu müsbət tendensiyanın davamını və imkanlarının daha da genişlənəcəyini gözləyir. Hökumətin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoyuluşu üçün elan etdiyi 1,3 milyard ABŞ dolları həcmində əhəmiyyətli büdcə ilə qarşıdan gələn dövlət layihələri **tikinti və mühəndislik** şirkətlərinin nikbinliyini artırıb ki, onlar da gələcək illər üçün müsbət proqnoz verir. Əlavə olaraq, **karbohidrogen sektorunda** çalışan müəssisələr müxtəlif amillərin təsirinə məruz qalıb və müəyyən dərəcədə məyusluq nümayiş etdirir. Cənub Qaz Dəhlizi (CQD) çərçivəsində Trans-Adriatik Boru Kəməri (TAP) fəaliyyətə başlayıb və ilk ilində Avropaya təxminən 8 milyard kubmetr qaz nəql edib. Eyni zamanda, sektor pandemiyadan, yaşıl və alternativ enerji mənbələrinə dair qlobal tendensiyadan və ən böyük dövlət şirkəti olan SOCAR-da aparılan islahatlardan təsirlənməyə davam edir. **Turizm və otelçilik** sahəsində qlobal mənfi tendensiya Azərbaycanda da hiss olunub. Sektoru təmsil edən Avropa şirkətləri göstərilən dövlət dəstəyini yüksək qiymətləndirsələr də, onların göstəriciləri pandemiyadan əvvəlki səviyyədən xeyli aşağı olaraq qalır və bu, qarşıdakı illərdə kiçilmə planlarına səbəb olur.

**COVID-19 pandemiyası** qeyri-müəyyənliyə ciddi töhfə olaraq qalarkən KOB sektoru şoklardan sonra güclü bərpa qabiliyyətinə malik olub və dəyişən şərtlərə sürətlə uyğunlaşır. Azərbaycanda pandemiya ilə bağlı məhdudiyyətlərin aradan qaldırılmasından bir neçə ay sonra keçirilən 2021-ci il sorğusu zamanı sorğu edilən şirkətlərin yarıdan çoxu pandemiyadan əvvəlki hasilat səviyyəsinə artıq çatdıqlarını və ya tezliklə çatmağı planlaşdırdıqlarını bildirdi. Eyni zamanda, respondentlərin təxminən yarısı hələ də məşğulluq səviyyəsi və iş şəraitinə mənfi təsirlərə məruz qalır. Özəl sektorun COVID-19-un qarşısının alınması tədbirləri zamanı uyğunlaşmaq üçün göstərdiyi əhəmiyyətli səylərə baxmayaraq, respondentlərin 90%-dən çoxunun qeyd etməsi ilə məhdudiyyətlər bərpa olunacağı təqdirdə şirkətlər potensial mənfi təsirlərə həssas olaraq qalır. Biznes işçi heyət üçün qoyulan distant iş tələbinə, beynəlxalq səyahətlərin bağlanmasına və toplaşmalara qoyulan məhdudiyyətlərə ən həssas olaraq qalır. Avropa şirkətlərinin əksəriyyəti (88%) yeni pandemiya dalğaları riskini azaltmaq məqsədilə öz işçilərinin vaksin olunmasını dəstəkləmək üçün aktiv mövqe tutur.

**İnvestisiya mühiti** bu il ümumi bərpa olunduğuna dair əlamətləri nümayiş etdirir. Ənənəvi olaraq yerli bazara çıxış və strateji regional tərəfdaşlıq Avropa şirkətlərini Azərbaycana gətirən əsas qüvvələr olaraq qalır. Hökumətin yeni investisiya müqavilələri və fəal inkişaf edən sənaye infrastrukturu (məsələn, Ələt AİZ, Ağdam Sənaye Parkı, Araz Vadisi İqtisadi Zonası və s.) kimi investorları cəlb etmək üçün göstərdiyi səylər sorğu iştirakçıları tərəfindən yüksək qiymətləndirilib. Alternativ enerji layihələrinə, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının həyata keçirilməsinə xüsusi diqqət ayrılmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya üçün ambisiyalı planlar, o cümlədən 2021-ci ildə Füzuli Beynəlxalq Hava Limanının açılması daxil olmaqla ilk infrastruktur layihələrinin təsirli sürəti Avropa biznesləri arasında investisiya marağını artırdı. Respondentlərin yarıdan çoxu (54%) bu regionlarda gələcək layihələrə maraq göstərdiyini bildirib, 14%-i isə artıq bu iqtisadi rayonlarda aktiv işə başlayıb. Respondentlər arasında maraq doğuran əsas sektorlar mülki tikinti, alternativ enerji və nəqliyyat infrastrukturu olub.

Ölkə iqtisadi böyümə və diversifikasiyanın artırılması məqsədilə biznes mühitinin yaxşılaşdırılması istiqamətində islahatlara davam edir. Ötən illərdə olduğu kimi, Avropa şirkətləri **ASAN və DOST mərkəzlərinin, Elektron Vergi platformasının, Dövlət Miqrasiya Xidmətinin** fəaliyyətini effektiv hesab edib. Avropalı investorların fikrincə, bu ilin nailiyyəti ən təsirli islahatların

ilk 5-liyinə daxil olan **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)** olub. Avropa şirkətləri Agentliyin Azərbaycan üçün strateji əhəmiyyətini vurğulayır və onun yeni istifadəyə verilmiş regional infrastrukturunu (KOB evləri, KOB dostları, KOB İnkişaf Mərkəzləri və s.) və KOB-lara dəstək proqramlarını müsbət qiymətləndirir. **Gömrüyün rəqəmsallaşdırılması** və **"Yaşıl Dəhliz"in** effektiv fəaliyyəti xarici şirkətlər üçün mühüm olaraq qalır və son illərdə yüksək gözləntilərlə qarşılanır. İslahat 2021-ci il sorğusunda ilk 3-də qalsa da, şirkətlərin bu günə qədər təcrübədə yaşadığı müsbət təsirlərin hələ də məhdud olması səbəbindən ötən illə müqayisədə mövqeyində geriləmə olub. Eynisi **Peşə Təhsili və Təlimində (PTT)** aparılan islahatlara da aiddir ki, bu islahatlar Avropa biznesləri tərəfindən effektiv hesab olunur, lakin hələ də bazarda ixtisaslı kadrlara çıxışda əhəmiyyətli irəliləyişlərə gətirib çıxarmayıb. Respondentlər biznes və investisiya mühitinin yaxşılaşdırılmasına töhfə vermək potensialına görə hər iki islahatın daha da prioritetləşdirilməsinə ümid edir.

İcbari moderasiya, kommersiya məhkəmələri və Məhkəmə-Hüquq Şurasının yaradılmasını əhatə edən məhkəmə sistemində davam edən islahatlara baxmayaraq, investorlar üçün **qanunun aliliyinin təmin edilməsi** həm 2020, həm də 2021-ci ildə respondentlərin yarıdan çoxunun seçdiyi ən gözlənilən prioritet olaraq qalır. **Biznes üçün maliyyəyə çıxış** bu il də ən yüksək tələblər arasında qalır, lakin hələ də əhəmiyyətli irəliləyiş müşahidə olunmayıb. Hər iki amil ölkədə özəl sektorun ümumi rifahında mühüm rol oynayır, dərin və struktur dəyişiklikləri tələb edir. Bu il qarşıdan gələn dövlət layihələrinin elanı **dövlət satınalmalarının şəffaflığını** yenidən gündəmə gətirib. Bu il tender prosedurlarına edilən bir sıra dəyişikliklər nikbinliyi və bu aspektin daha da təkmilləşdirilməsinə dair gözləntiləri artırıb.

Azərbaycan qlobal strateji prioritetlər, o cümlədən **dayanıqlı və yaşıl iqtisadiyyatın** inkişafı istiqamətində fəaliyyətini davam etdirir. Aİ təşəbbüslərinin dəstəyi ilə ölkə bu sahədə siyasətini və hüquqi çərçivəsini gücləndirməkdə davam edir. Bu il atılan mühüm addımlardan biri 2030-cu ilə qədər emissiyaların ən azı 35% və 1990-cı il səviyyələri ilə müqayisədə 40%-ə qədər azaldılmasını nəzərdə tutan yeni Milli səviyyədə Müəyyənləşdirilmiş Töhfələrin (MTM) hazırlanması və Enerji Effektivliyinə dair Milli Fəaliyyət Planının hazırlanması olmuşdur. Bərpa olunan enerji mənbələrindən səmərəli istifadənin əsasını təşkil edən və enerji sahəsində dövlət sektoru ilə özəl sektor arasında münasibətləri tənzimləyən "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" və "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" iki yeni qanun təsdiq edilib. Dairəvi iqtisadiyyatın inkişafı və KOB-ların "yaşıllaşdırılması" istiqamətində bir sıra addımlar atılıb. Avropa bizneslərinin 85%-i öz işlərində ekoloji maarifləndirmənin tətbiqinin vacib olduğunu bildirir ki, bu da keçən illə müqayisədə 18% çoxdur. Ən məşhur təcrübələr arasında enerji cəhətdən səmərəli texnologiyalar, emissiyaların azaldılması və təkrar emal oluna bilən materialların istifadəsi yer alır. Respondentlər maliyyə alətlərini özəl sektorun "yaşıllaşdırılması"nı təşviq etmək üçün ən təsirli alət kimi qiymətləndirib, bunun ardınca ətraf mühitin mühafizəsi qaydaları və bazarda yaşıl məhsullara artan tələbat gəlir.

2021-ci ildə Azərbaycanda **özəl sektorun rəqəmsallaşdırılması** davam edərək onun pandemiyanın təsirlərinə davamlılığını artırıb. Ölkə genişzolaqlı qoşulmaların əlçatanlığının və sərfəliliyinin və internetin sürətinin artırılması istiqamətində müəyyən irəliləyişlər əldə edib, halbuki onun səviyyəsi avropalı investorlar tərəfindən gözləniləndən aşağı olaraq qalır. Bununla belə, rəqəmsal infrastruktur şəhərlərdə kənd yerlərindən əhəmiyyətli dərəcədə yaxşı olaraq qalır. Avropa şirkətləri İnformasiya Texnologiyaları (İT) infrastrukturunun və əhalinin rəqəmsal bacarıqlarının gələcək inkişafını özəl sektorun daha da rəqəmsallaşdırılması üçün vacib hesab edir. Müəssisələr arasında onlayn əməliyyatların artması ilə əlaqədar olaraq, milli siyasət səviyyəsində kibertəhlükəsizliyə daha çox diqqətin cəlb edilməsinə və şirkətlər arasında bu mövzuda məlumatlılığın artırılmasına ehtiyac var.

Gender diskriminasiyasını qadağan edən qanunvericiliyə baxmayaraq, praktikada **qadınların iqtisadi imkanlara bərabər çıxışının təmin edilməsi** problem olaraq qalır. Tikinti (7%), nəqliyyat (16%), neft və qaz (13%) kimi sektorlarda qadın işçilər azlıqda qalır. Oxşar iş üçün əmək haqqı fərqi 25% qiymətləndirilir. Sorğunun nəticələri göstərir ki, Azərbaycandakı Avropa şirkətləri gender balanslı yanaşmaya riayət etməyi və orta hesabla yerli həmkarlarından daha çox qadın işçiləri işə götürməyi hədəfləyir. Sorğuda təmsil olunan şirkətlər arasında qadınların ümumi payı təxminən 40% təşkil edir. Əksəriyyət administrativ iş, satış, marketinq və orta səviyyəli idarəetmə sahələrində məşğuldur. Şirkətlərin 20%-dən çoxunda qadınlar yuxarı səviyyəli idarəetmədə də təmsil olunur.



# 1 BİZNES VƏ İNVESTİSİYA MÜHİTİ 2021

## 1.1 MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

Dünya COVID-19 pandemiyasına və onun normal iqtisadi və sosial vəziyyətə qayıdışa və qlobal iqtisadiyyatların tam bərpasına mane olan nəticələrinə qarşı mübarizəsini davam etdirir. Beynəlxalq Valyuta Fondunun (BVF) məlumatına görə, qlobal iqtisadiyyat 2020-ci ildə 4,9% azalıb və 2021-ci ildə 5,9%, 2022-ci ildə 4,9% artacağı gözlənilir.[1] İƏİT 2021-ci il üçün 5,6%, 2022-ci il üçün 4,5%[2], AYİB 2021-ci ildə 5,5%, 2022-ci ildə isə 3,8% artım proqnozlaşdırır.[3] İnflyasiya və təklifin pozulması 2021-ci ildə iqtisadiyyatlar üçün əlavə problemə çevrilərək həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan iqtisadiyyatlara zərbə vurdu. 2021-ci ilin oktyabr-noyabr aylarında Almaniya və Böyük Britaniyada inflyasiya 5%-ə, Fransada 2,8%-ə, İtaliyada 3,7%-ə, ABŞ-da 6,5 %-ə çatıb.[4]

Azərbaycan ixracın 90%-ni, ÜDM-in təxminən 35%-ni təşkil edərək iqtisadiyyatın dayağı olaraq qalan neft və qaz təbii sərvətləri ilə zəngin, gəlir səviyyəsi ortadan yüksək olan ölkədir. Ölkənin qeyri-neft sektorlarına daha böyük rol verməklə iqtisadiyyatını şaxələndirmək kimi iddialı gündəliyi mövcuddur. 2016-cı ildən Azərbaycan biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun gücləndirilməsi və KOB-lara dəstək məqsədilə geniş islahatlar gündəliyi həyata keçirib. Digər ölkələrdə olduğu kimi, 2020-ci ildə Azərbaycan iqtisadiyyatı da COVID-19 pandemiyası səbəbindən 4,3% azalma ilə daralıb. Karbohidrogen sektorunda azalma 8,7%, qeyri-neft sektorunda isə 2,6%-ə çatıb. Hökumət 2020-ci ildə ÜDM-in 4,6%-i və 2021-ci ildə ÜDM-in 0,3%-i dəyərində özəl sektora dəstək paketi də daxil olmaqla vətəndaşları və biznesi qorumaq üçün tədbirlər gördü[4]. Paketə əmək haqqının ödənilməsi, vergilər, biznes üçün kreditlər, mövcud kreditlər üçün dövlət zəmanətləri və subsidiyalarla bağlı genişləndirilmiş dəstək tədbirləri daxil idi. O həmçinin vətəndaşların vaksinasiyasını fəal şəkildə təbliğ edib.

2021-ci ildə Azərbaycan iqtisadiyyatı özünün bərpasına başladı. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-noyabr aylarında ÜDM real ifadədə 5,3% artıb. 2020-ci ilin eyni dövrü ilə müqayisədə qeyri-karbohidrogen sektorlarında ÜDM-in artımı 6,4%-ə çatıb.[5] BVF ÜDM artımını 2021-ci ildə 2,3% və 2022-ci ildə 1,7% proqnozlaşdırır[6]; Asiya İnkişaf Bankı (AİB) 2021-ci ildə 2,2%, 2022-ci ildə 2,5% artım proqnozlaşdırır.[7] AYİB 2021-ci ildə 4%, 2022-ci ildə 3,2% artım proqnozlaşdıraraq öz proqnozunda daha optimist qalır.[3] (Şəkil 1.1) Azərbaycan İqtisadiyyat Nazirliyi və "Trading Economics"in məlumatına görə, 2021-ci il üçün ÜDM-in 50 milyard ABŞ dollarına çatacağı gözlənilir.[8]

**ŞƏKİL 1.1.** Azərbaycanda ÜDM dinamikası (illik faizlə)




**Mənbə:** BVF, AİB, AYİB.

**ŞƏKİL 1.2.** Azərbaycanla Aİ arasında ticarət dövriyyəsi, milyard ABŞ dolları




**MƏNBƏ:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Maliyyə Nazirliyinin proqnozuna görə, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri 15,5 milyard ABŞ dolları, xərcləri isə 17,04 milyard ABŞ dolları təşkil edəcək və nəticədə 1,5 milyard ABŞ dolları fiskal kəsir yaranacaq. 2021-ci ilin sentyabr ayında ölkədə inflyasiya 2020-ci ildəki 2,8%-lə müqayisədə 8,5%-ə çatıb. Beynəlxalq ehtiyatlar 2021-ci ilin sentyabrında demək olar ki, səkkiz aylıq idxalı əhatə edib nisbətən sabit qalaraq 7 milyard ABŞ dolları təşkil edib[3]. Fitch 2021-ci ilin noyabr ayında Azərbaycanın borcunu "BB+" səviyyəsində qiymətləndirib (2020-ci illə müqayisədə stabil), lakin proqnoz mənfidən stabilə yaxşılaşıb.[9]

**CƏDVƏL 1.1.** 2021-ci il üzrə Azərbaycanda əsas iqtisadi tendensiyalar

| | |
|---|---|
| İXRAC | 2019-cu ildə ümumi ixrac 19,6 milyard ABŞ dolları, qeyri-neft ixracı 1,9 milyard ABŞ dolları olub.<br><br>2020-ci ildə ümumi ixrac 13,7 milyard ABŞ dolları, qeyri-neft ixracı 1,9 milyard ABŞ dolları olub.<br><br>2021-ci ildə (Yanvar-Oktyabr) ümumi ixrac 16.8 milyard ABŞ dolları, qeyri-neft ixracı 607.2 milyon ABŞ dolları olub. |
| XARİCİ TİCARƏT | Xarici ticarət dövriyyəsi 2021-ci ilin ilk 8 ayı ərzində 20,1 mlrd. ABŞ dolları olub. |
| İSTEHLAKÇI AKTİVLİYİ | İstehlakçı qiymət indeksi 2021-ci ilin oktyabr ayınadək 176.9-a çatıb. |
| İNFLYASİYA | 2020-ci ilin iyul ayında inflyasiya tədricən artaraq 2,8% səviyyəsində qalıb, 2021-ci ilin noyabr ayında isə 11,1%-ə çatıb. |
| MƏŞĞULLUQ | İşsizlik 2020-ci ildə 6,27% və 2021-ci ilin avqustunda 6,4% olub. |

**MƏNBƏ:** Dünya Bankı[10], Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

## KOB sektoru

Azərbaycanda KOB-ların iqtisadi potensialı hələ də az inkişaf etmiş olaraq qalır. 2020-ci ildə 316.500 qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkar olub ki, bu da 2019-cu illə müqayisədə təxminən 16,7% çoxdur. 2020-ci ildə qeyri-neft ixracının 26,3%-ni KOB-lar təşkil edib. İƏİT-in 2020-ci ili əhatə edən "KOB Siyasəti İndeksi"nə əsasən, KOB-lar İƏİT ölkələrində əlavə dəyərin 60%-i və məşğulluğun 60-70%-i ilə müqayisədə 2018-ci ildə əlavə dəyərin 13,4%-ni və ümumi məşğulluğun 42,9%-ni təmin edib. Azərbaycanın qeyri-neft iqtisadiyyatının hissəsi kimi KOB-lar əlavə dəyərin 23,5%-ni, məşğulluğun 45%-ni təmin edib.[11] Azərbaycan hökuməti KOB-ların inkişafı siyasətini və infrastrukturunu gücləndirməklə sektora dəstəyini davam etdirir. "Strateji Baxış 2025" KOB sektorunun milli ÜDM-in 60%-ni, ümumi məşğulluğun 70%-ni və ümumi qeyri-neft ixracının 40%-ni təşkil edəcəyini müəyyənləşdirir.[12] Məqsəd KOB sektorunun inkişafı üçün biznes mühitinin daha da yaxşılaşdırılmasını nəzərdə tutan "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də təsdiqlənib.[13] 2021-ci ildə KOBİA mərkəzi və regional səviyyədə KOB Evləri, KOB Dostları, KOB İnkişaf Mərkəzləri və s. ilə xidmətlərini və infrastrukturunu genişləndirməyə davam edib.[14]

## Aİ ilə əməkdaşlıq

Azərbaycan Aİ üçün strateji tərəfdaşdır və Avropa investorları üçün cəlbedici bazardır. Ölkə Xəzər qazını Aİ bazarına çıxarmaqla Aİ-nin enerji resurslarının şaxələndirilməsində mühüm rol oynayır. 2019-cu ilin dekabr ayından etibarən CQD çərçivəsində yeni TAP işə düşməyə başlayıb və 2021-ci ilin dekabrına 7 mlrd. kubmetr Azərbaycan qazını Aİ-yə çatdırıb.[15]

Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biri olaraq qalır. 2015-ci ildən bəri ölkələr arasında ümumi ticarət artaraq 2018-2019-cu illərdə təxminən 12,2-12,4 milyard ABŞ dollarına çatıb. 2020-ci ildə COVID-19 ilə əlaqəli azalmadan sonra ticarət 2021-ci ildə 70% artımla yenidən canlanıb və bu il ölkənin ümumi dövriyyəsinin təxminən 45%-ni təşkil edən 15,2 mlrd. ABŞ dolları dəyərində rekord səviyyəyə çatıb.[16] (Şəkil 1.2). Bu il Aİ ölkələri arasında Azərbaycan idxalında ən böyük paya malik olan ölkələr Almaniya, İtaliya, Fransa, Polşa və Rumıniyadır. Azərbaycandan ən çox məhsul İtaliya, Xorvatiya, Almaniya, Portuqaliya və İspaniyaya ixrac edilir.

Aİ Azərbaycanda iqtisadi modernləşmə, diversifikasiya və sosial inkişafa səbəb olan islahatları dəstəkləyir. Əməkdaşlıq yaxşı idarəetmə, qanunun aliliyi, korrupsiya ilə mübarizə, bacarıqların inkişafı və digər tədbirlər diqqət mərkəzində olmaqla, əhaliyə və hökumətə dəstəyi əhatə edir. Son illər ikitərəfli əməkdaşlıq çərçivəsində iqlim dəyişikliyinə diqqət də artırılıb. Regional EU4Climate[17], EU4Energy[18] və EU4Environment[19] təşəbbüsləri çərçivəsində həyata keçirilən layihələr dayanıqlı və yaşıl iqtisadiyyat üçün əlverişli siyasət və biznes mühitinin inkişafında Azərbaycana dəstək olmaq məqsədi daşıyır. EU4Digital ŞT ölkələri ilə Aİ arasında rəqəmsallaşma və rəqəmsal aspektlər üzrə əməkdaşlığı gücləndirmək istiqamətində hökuməti və özəl sektoru dəstəkləyir.[20]

EU4Business regional təşəbbüsü çərçivəsində həyata keçirilən layihələr maliyyəyə çıxışı, daha yaxşı biznes tənzimləmələrini və ticarət imkanlarını təkmilləşdirməklə Şərq Tərəfdaşlığı ölkələrində KOB sektorunu dəstəkləyir. 2020-ci ildə açıqlanan ilkin məlumatlara görə, Aİ-nin EU4Business layihələrinin ümumi büdcəsi 56,1 milyon avro təşkil edib ki, bunun 41%-i maliyyəyə çıxış, 33%-i daha yaxşı biznes inkişafı xidmətlərinə və 26%-i biznes mühitinin yaxşılaşdırılmasına ayrılıb. Azərbaycanda 30 EU4Business layihəsinin həyata keçirdiyi fəaliyyətlər nəticəsində 17600-ə yaxın KOB-lara dəstək verilib, 1275 iş yeri yaradılıb. AYİB və AİB innovativ, davamlı və ya yüksək əlavə dəyərli məhsullar istehsal edən KOB-ları dəstəkləmək məqsədilə özəl sektor üçün bir sıra kredit və konsultasiya xidmətləri təqdim edir.

Azərbaycanda özəl sektoru dəstəkləyən Aİ tərəfindən maliyyələşdirilən layihələrin siyahısı Əlavə 2-də verilib.

Görüşlər zamanı EU4Business təşəbbüsünün bir hissəsi kimi Şərq Tərəfdaşlığı (ŞT) Ticarət Yardım Masası yaradılıb. Yardım masasının 2022-ci ilin yazında fəaliyyətə başlaması və ŞT ölkələri ilə Aİ arasında ticarətin inkişafına kömək edəcəyi gözlənilir.

15 dekabr 2021-ci il tarixində Brüsseldə Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna hökumət başçıları, Aİ nümayəndələri və üzv ölkələrin dövlət və ya hökumət başçıları 6-cı Şərq Tərəfdaşlığı Sammiti üçün Brüsseldə görüşdülər. Müzakirələr 5 əsas sahəyə – iqtisadiyyat, idarəetmə, ətraf mühit, rəqəmsala və cəmiyyətə fokuslanıb. Görüşlər zamanı EU4Business təşəbbüsünün bir hissəsi kimi Şərq Tərəfdaşlığı (ŞT) Ticarət Yardım Masası yaradılıb. Yardım masasının 2022-ci ilin yazında fəaliyyətə başlaması və ŞT ölkələri ilə Aİ arasında ticarətin inkişafına köm ək edəcəyi gözlənilir.

Aİ üzv dövlətləri, Şərq tərəfdaşlığı ölkələri, Şərq Tərəfdaşlığının digər maraqlı tərəfləri ilə apardığı hərtərəfli məsləhətləşmələr və onların töhfələri nəticəsində qəbul edilən "2020-ci ildən sonrakı dövrdə Şərq Tərəfdaşlığı: Dayanıqlığın gücləndirilməsi – bütün ölkələrdə özünü təsdiqləyən Şərq tərəfdaşlığı" adlı Birgə Kommünike əsasında əməkdaşlığını gücləndirməyə çalışacaq. Dayanıqlığın gücləndirilməsi Aİ-nin iki əsas component – idarəçilik və investisiya üzərində qurulmuş "Bərpa, Dayanıqlıq və İslahatlar" gündəliyi çərçivəsində əsas siyasət məqsədi olaraq qalır.

ŞT ölkələri üçün yeni gündəlik dayanıqlı inkişafı təşviq etmək və qarışıq maliyyələşdirmə və zəmanətlər daxil olmaqla Aİ-nin innovativ alətlərindən istifadə edərək dövlət və özəl investisiyalardan istifadə etmək üçün regional İqtisadi və İnvestisiya Planı ilə əsaslandırılacaq. Bu plan tərəfdaş ölkələrin hər biri üçün bir sıra qabaqcıl təşəbbüsləri ehtiva edir. Azərbaycan üçün beş mühüm təşəbbüsü müəyyən edilib.[24]

BU, TƏRƏFDAŞ ÖLKƏ İLƏ ONLARIN EHTİYAC VƏ AMBİSİYALARI NƏZƏRƏ ALINMAQLA, GÖZƏÇARPAN NƏTİCƏLƏR TƏMİN EDƏN KONKRET PRİORİTET LAYİHƏLƏRİ İFADƏ EDİR:

- **Prioritet 1:** Yaşıl bağlantı – Bakının yaşıl limanına dəstək
- **Prioritet 2:** Rəqəmsal bağlantı – rəqəmsal nəqliyyat dəhlizinə dəstək
- **Prioritet 3:** Davamlı, innovativ, yaşıl və rəqabətə davamlı iqtisadiyyatın dəstəklənməsi — 25,000 KOB-a birbaşa dəstək
- **Prioritet 4:** Kənd yerlərinin innovativ inkişafı
- **Prioritet 5:** Daha ağıllı və yaşıl şəhərlər

## ÜTT-yə üzvlük

Azərbaycan Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük üzrə danışıqları davam etdirir və ÜTT prinsip və qaydalarını ticarətlə bağlı yeni qəbul edilmiş qanunvericiliyə və daxili normativ bazaya daxil edir. Azərbaycan hökumətinin 2021-ci ildə İşçi Qrup üzvlərinə təqdim etdiyi məlumata əsasən, cari ilin iyul ayında İşçi Qrupun hesabatının ilkin variantının yeni versiyası yayılıb. Danışıqların gedişatını nəzərdən keçirmək üçün İşçi Qrupun növbəti iclasının 2022-ci ildə baş tutacağı gözlənilir.[25]

Avropa İttifaqı ticarətlə bağlı danışıqların hazırlanmasında və daxili islahatlar gündəliyinin həyata keçirilməsində Azərbaycan hökumətinə dəstəyini davam etdirib. 2020-ci ildən etibarən Aİ tərəfindən maliyyələşdirilən "ÜTT-yə üzvlük danışıqlarında və ticarətlə bağlı digər fəaliyyətlərdə Azərbaycan hökumətinin potensialının gücləndirilməsi" layihəsi yeni qanunvericiliyin hazırlanmasına dəstək verib, institusional islahatlara dair məsləhətlər verib və Azərbaycan hökuməti və özəl sektorun ticarətlə bağlı potensialının artırılmasını təmin edib. Bu dəstək vasitəsilə Avropa İttifaqı Azərbaycanda fəal və müasir ticarət siyasətinin hazırlanmasına və həyata keçirilməsinə töhfə verir və ölkənin iqtisadi strategiyasını dəstəkləyir.

## 1.2 YERLİ BİZNES MÜHİTİ: SEKTORİAL GÖSTƏRİCİLƏR

2021-ci il sorğusu əvvəlki illə müqayisədə Avropa şirkətləri arasında daha çox nikbinliyi əks etdirir. Ölkədə biznesin bərpasının başlandığını göstərən əsas göstəricilər arasında inkişaf izlənilib. Müəssisələrin artan payı daha da genişlənməyi planlaşdırır (2020-ci ildə 47%-lə müqayisədə 53%) və əvvəlki ilin nəticəsi ilə müqayisədə investorların təxminən 80%-i öz biznesləri üçün məkan kimi yenidən Azərbaycanı seçməyə hazırdır.

Bu il üçün ən müsbət göstəricilər və proqnoz nəqliyyat və logistika, tikinti, maşınqayırma, İKT kimi qeyri-neft sektorları tərəfindən verilib. Eyni zamanda, karbohidrogen sənayesində çalışan müəssisələr qlobal və yerli amillərin birləşməsindən təsirlənir. Bütün dünyada olduğu kimi, turizm və otelçilik sahəsində olan bizneslər hələ də pandemiyanın ən ağır nəticələrini yaşayır. Bütün sektorlardan olan Avropa şirkətləri ölkədəki biznes mühiti ilə bağlı oxşar fikirlər səsləndirir və dövlət dəstəyinin, xüsusən də pandemiya ilə bağlı paketlərin mövcudluğunu yüksək qiymətləndirir.

Azərbaycan 2016-cı ildə iqtisadiyyatın şaxələndirilməsinə və biznes mühitinin yaxşılaşdırılmasına yönəlmiş dərin islahatlara başladıqdan bəri illik Aİ Biznes Mühiti sorğularında hər il Avropa şirkətlərinin Azərbaycandakı biznes mühitindən getdikcə artan məmnunluğu izlənilir.

**ŞƏKİL 1.3.** 2021-ci ildə müxtəlif amillərin Avropa şirkətlərinə təsiri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

**ŞƏKİL 1.4.** Avropa şirkətlərinin Azərbaycandakı iqtisadi vəziyyətə baxışları və sektorlar üzrə




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

2020-ci ildə müsbət tendensiya COVID-19 pandemiyası, enerji qiymətlərindəki təlatüm və Azərbaycan və Ermənistan arasında hərbi münaqişə nəticəsində yerli bazarda yaranan qeyri-müəyyənlik səbəbindən müəyyən qədər təhlükə altına düşüb. 2021-ci il sorğusu Avropa şirkətlərinə təsir edən amillərin əksəriyyəti üçün nikbinliyi qaytardı. COVID-19 pandemiyası biznesə təsir edən ən güclü amil olaraq qalır və respondentlər tərəfindən biznesə bu il "orta dərəcədə"n daha çox təsir edən yeganə amil hesab edilib (Şəkil 1.3). Bu il bir neçə amilin biznes mühitinə mənfi təsirləri ötən illə müqayisədə xeyli azalıb. Bunların arasında "neft qiymətlərinin qeyri-sabitliyi", "Azərbaycanda islahatların yavaşlaması riski" və "qeyri-müəyyən bazar inkişafı" var ki, bu da ölkənin tədricən daha proqnozlaşdırıla bilən inkişaf yoluna qayıtdığını göstərir. Bu il Avropa şirkətlərini yalnız "ixtisaslı kadrların çatışmazlığı" və "gömrük nəzarəti" daha çox narahat edib ki, bu da bu sahələrdə əlavə islahatlara ehtiyac olduğunu göstərir.

Ümumilikdə, Avropa şirkətləri bu il milli iqtisadiyyatın ötən illə müqayisədə daha yaxşı olduğunu hesab edir, iqtisadi vəziyyəti zəif-qənaətbəxş-güclü şkalasında "qənaətbəxş"ə yaxın qiymətləndirir (Şəkil 1.4). Pandemiya qlobal miqyasda artan rəqəmsallaşma sayəsində İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) sektorunda fəaliyyət göstərən şirkətlər üçün yeni imkanlar açıb. İKT sektorunun nümayəndələrinin 2021-ci ildə öz sektorlarındakı vəziyyətlə bağlı ən nikbin olduqları görünür və onu digər sektorlardan bir qədər güclü və "qənaətbəxş"dən daha yaxşı qiymətləndirirlər. Bu araşdırma çərçivəsində aparılan müsahibələr zamanı sektor nümayəndələri rəqəmsal xidmətlərə daim artan tələbata əsasən daha da genişlənmə planları olduqlarını təsdiqləyib.

Azərbaycanda **İKT sektoru** 2020-ci ildən artım nümayiş etdirib, 2016-cı ildən bəri milli iqtisadiyyatda əlavə dəyər (2%), o cümlədən ümumi (2,2%) və xalis (1,9%) mənfəətdə payı ən yüksək səviyyəyə çatıb.[5] 2021-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunun nəticələri göstərir ki, sektor bu gün özünü olduqca inamlı hiss edir, gələcəyinə nikbin baxır və digər sektorlara nisbətən pandemiyadan daha az təsirlənir.

2021-ci ildə Azərbaycanda dağ mədən, neft və qaz sənayesi qlobal qiymətlərin artımından və Şahdəniz qaz yatağından təbii qaza birbaşa çıxışı təmin edən CQD çərçivəsində yeni TAP-ın kommersiya istismarına başlamasından faydalanıb. 2021-ci ilin dekabr ayının əvvəlinə o, Azərbaycandan Avropaya 7 milyard kubmetrdən çox qaz nəql edib. Bununla belə, sektor nümayəndələrinin verdiyi cavablar digər sektorların cavablarına nisbətən bir qədər daha pessimist görünür.[15] Qlobal pandemiya və inkişaf etməkdə olan iqtisadiyyatlar tərəfindən təmiz enerjilərin prioritetləşdirilməsi qalıq yanacaq şirkətləri tərəfindən ciddi islahatlar tələb edir. İdarəçiliyini Azərbaycan İnvestisiya Holdinqinə keçirən Azərbaycanın ən böyük dövlət şirkəti olan SOCAR-da davam edən keçid dövrü həyata keçirilən və planlaşdırılan bəzi layihələri dayandırıb.

**Dağ mədən, neft və qaz sənayesi** ümumi ixracın təxminən 90%-ni və ÜDM-in təxminən 35%-ni təmin edərək Azərbaycan iqtisadiyyatının onurğa sütunu olaraq qalır. Dövlət büdcəsinin təxminən 60%-i bu sektorun payına düşür. 2014-2015 və 2020-ci illərdə neft qiymətində şoklar ölkənin vahid sektordan asılılığını önə çıxardı və iqtisadiyyatın şaxələndirilməsi üçün siyasi səyləri şərtləndirdi. Sektor 2020-ci ildə 8,7%-ə qədər kiçildi və 2021-ci il üzrə Aİ Biznes Mühiti Sorğusu qlobal və yerli amillərin birləşməsi səbəbindən sektor nümayəndələrinin hələ də çətinliklərlə üzləşdiyini təsdiqləyir.[26]

Aİ Biznes Mühiti Sorğusu tərəfindən ünvanlanan ənənəvi sual Avropa şirkətlərinin ölkədə gələcək iş planlarına həsr olunub. 2021-ci ildə verilən cavablar 2020-ci ildəki 48%-lə müqayisədə respondentlərin 53%-nin genişlənməni planlaması ilə 2020-ci ilə nisbətən daha yüksək əminlik və nikbinlik nümayiş etdirir.

**ŞƏKİL 1.5.** Azərbaycanda gələcək inkişaf üçün Avropa şirkətlərinin planları




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

**ŞƏKİL 1.6.** Şirkətlərin yenidən biznes məkanı kimi Azərbaycanı seçməkdə əminliyi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Soröusu 2021

Şirkətlərin daha 37%-i eyni ölçüdə qalmağı planlaşdırır (keçən il 26%). Müəssisələrin təxminən 10%-i kiçilməyi və ya bazardan çıxmağı planlaşdırır (keçən ildəki kimi) (Şəkil 1.5).

Şirkətlərin Azərbaycanda gələcək inkişaf planları ilə bağlı sektorlar üzrə əhəmiyyətli fərqlər mövcuddur. Tikinti və mühəndislik sektoru Qarabağda, Şərqi Zəngəzurda və digər iqtisadi rayonlarda yeni elan edilmiş fürsətləri əhatə edən yeni layihə gözləntilərindən irəli gələrək gələcəyə yüksək nikbinliklə baxır. Nəqliyyat, logistika və İKT sahələrində çalışan şirkətlər də bu sektorlardakı müsbət tendensiyalardan irəli gələn genişlənməni proqnozlaşdırır. Dağ mədən, neft və qaz sahələrində fəaliyyət göstərən müəssisələr müəyyən səviyyədə qeyri-müəyyənlik nümayiş etdirir və daha çox mövcud imkanlar çərçivəsində fəaliyyət göstərmək niyyətindədir. Nümayəndələrinin əksəriyyəti kiçilməni proqnozlaşdıran yeganə sektor pandemiya təsirlərinin tam spektrindən əziyyət çəkən turizm və otelçilik idi.

Bir neçə illik azalmadan sonra (2020-ci ildə 15,2%, 2019-cu ildə 6,1% və 2018-ci ildə 8,8%) Azərbaycanda tikinti sektoru nikbinlik nümayiş etdirir və 2021-ci ildə təxminən 9,1%-ə qədər böyüyəcəyini gözləyir. Sənayenin 2025-ci ilə qədər hər il təxminən 4,2-4,5% genişlənməyə davam edəcəyi gözlənilir. Sektor ÜDM-in təxminən 7%-ni təşkil edir və 2021-ci ilin dövlət büdcəsindən sektora yüksək gözləntilər gətirən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması üçün 2,2 milyard AZN (1,2 milyard avro) vəsait ayrılıb. Vəsaitlərin nəqliyyat infrastrukturu, boru kəmərləri, mülki tikinti və s. üçün xərclənəcəyi gözlənilir.[27]

**ŞƏKİL 1.7.** Avropa şirkətlərinin son illər Azərbaycan hökumətindən aldığı dəstək barədə fikirləri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

**ŞƏKİL 1.8.** Dövlət orqanlarının Avropa şirkətlərinə münasibətdə davranışı




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021



Keçən il olduğu kimi, Avropa şirkətlərinin təxminən 80%-i öz biznesləri üçün yenidən Azərbaycanı seçəcəyini qeyd edib. Bu suala ən yüksək xal verən sektorlar arasında (təxminən 90%) nəqliyyat və logistika, eləcə də tikinti və mühəndislik var. İKT, dağ mədən, neft və qaz sektorlarında fəaliyyət göstərən şirkətlər orta səviyyəyə yaxın cavablar verir, daha sonra turizm və otelçilik gəlir (Şəkil 1.6).

Son bir neçə ildə ölkədə nəqliyyat və logistika sektorunda davamlı artım müşahidə olunur. Sektor Avropa və Asiya bazarlarını birləşdirən əlverişli mövqeyinə görə ölkə üçün prioritetləşdirildi. Sənayeyə daha bir təkan dəmir yolu və avtomobil yolları infrastrukturunun inkişafından, gömrükdə rəsmiləşdirmə üçün vaxt və xərcləri minimuma endirmək və transsərhəd daşımaları artırmaq məqsədilə aparılan davamlı islahatlardan gəldi.

**Nəqliyyat və logistika** strateji sektor hesab olunur və ölkənin Avropa ilə Asiyanı birləşdirən nəqliyyat dəhlizləri qurmağa imkan verən yerləşmə mövqeyinə görə Azərbaycan üçün ən böyük qeyri-neft sektorlarından biridir. Sərnişin səyahətlərinə təsir göstərən pandemiya tədbirlərinin güclü təsirinə baxmayaraq, sektor 2020-ci ildə genişlənərək milli iqtisadiyyata 2019-cu ildəki 5,7%-lə müqayisədə 7,1% əlavə dəyər təmin edib və 2021-ci ildə artımın davam edəcəyi gözlənilir. Azərbaycan nəqliyyat infrastrukturunu inkişaf etdirməyə, investisiyalar cəlb etməyə davam edir. Cari nəqliyyat infrastrukturu layihələri təxminən 2,7 milyard avro avtomobil yollarının inkişafı və 1,8 mlrd. avro dəmir yolu infrastrukturu üçün ayrılan vəsaitin daxil olduğu təxminən 6,7 milyard avro məbləğindədir.[5]

Avropa şirkətləri biznesə dövlət dəstəyinin mövcudluğunu "orta"dan daha yaxşı qiymətləndirib (Şəkil 1.7) Müsahibələr zamanı bizneslər pandemiyaya qarşı dəstək paketlərinin geniş sayda şirkətlər üçün ən faydalı və əlçatan paketlərdən biri olduğunu vurğuladı.

Turizm və otelçilik nümayəndələri dövlət tərəfindən göstərilən dəstəyi digərlərindən daha yüksək dəyərləndirir və "güclü" kimi qiymətləndirir. Bununla belə, sektor pandemiyadan təsirlənməkdə davam edir və sorğu sektorun bərpa olunmada bir neçə ölçü üzrə digər sənayelərlə müqayisədə açıq-aşkar geridə qaldığını göstərir. Dövlət dəstəyini nisbətən güclü hesab edən digər iki sektor nəqliyyat, dağ mədən, neft və qaz sektorlarıdır. İKT və tikinti sahəsində çalışan şirkətlər göstərilən tədbirləri "orta" kimi qiymətləndirərək daha az dəstək hiss etdiklərini bildirib.

Bütün dünyada pandemiyadan ən çox təsirlənən **turizm və otelçilik sənayesi** olub. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatının (UNWTO) məlumatına görə, 2020-ci ildə Avropaya beynəlxalq turist gəlişi 2019-cu illə müqayisədə 69% azalıb və pandemiya tədbirlərinin aradan qaldırılmasına, səyahət məhdudiyyətləri və qlobal vaksinasiya kampaniyalarına baxmayaraq, 2021-ci ildə eyni səviyyədə qalıb. Azərbaycanda beynəlxalq turist gəlişi 2019-cu illə müqayisədə 75% (2020-ci ildə) və 79% (2021-ci ildə) azalaraq, demək olar ki, 2011-ci il səviyyəsinə geriləyib.[5] UNWTO-nun proqnozuna görə, sektorun 2019-cu il səviyyəsinə 2023-cü ildən tez çatmayacağı gözlənilir.[28]

**ŞƏKİL 1.9.** Avropa şirkətləri perspektivindən Azərbaycanda biznes mühiti




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

Müxtəlif sektorlarda mövcud iqtisadi vəziyyətdə aşkar fərqə baxmayaraq, Avropa şirkətləri Azərbaycanda biznes mühitini nisbətən oxşar səviyyədə, "neytral" kimi görür (bax Şəkil 1.8). Eynisi bütün sənaye sahələrinin "neytral" və "nisbətən dəstəkləyici" kimi təsvir etdiyi dövlət orqanları ilə əməliyyat münasibətlərinə də aiddir (lisenziyalar, icazələr verən orqanlar, miqrasiya, vergi orqanları və s. kimi) (Şəkil 1.9.). Müsahibələr zamanı şirkətlər Azərbaycanda 2016-cı ildən bəri müşahidə olunan dövlət xidmətlərinin rəqəmsallaşdırılması və gənclərin dövlət sektorunda işləməyə cəlb edilməsi nəticəsində dövlət məmurları ilə əlaqələrin yaxşılaşdığını təsdiqləyib.

Əldə edilən nəticə dövlətin müxtəlif sənaye sahələrinə münasibətdə neytrallığını sübut edən müsbət işarədir. Bununla belə, ölkənin iqtisadiyyatın şaxələndirilməsi və güclü KOB sektorunun inkişafı ilə bağlı ambisiyalı məqsədləri özəl sektorun sürətli böyüməsini təmin etmək üçün çox dəstəkləyici biznes mühitini tələb edir. Bu baxımdan, ölkədə biznes mühitinin yaxşılaşdırılması və dövlət orqanlarında müştəri yönümlü təfəkkürün formalaşdırılmasına hədəflənən gələcək islahatlar ehtiyac olaraq qalır.

## 1.3 PANDEMİYA DÖVRÜNDƏ BİZNESİN BƏRPASI

Azərbaycanda pandemiya ilə bağlı məhdudlaşdırma tədbirləri aradan qaldırıldıqdan sonra 2021-ci il sorğusunda Avropa şirkətlərinin 52%-i pandemiyadan əvvəlki səviyyələrlə müqayisə oluna bilən nəticələr əldə etdiyini bildirib. Respondentlərin digər yarısı hələ də dayanıqlı bərpa olunmanı təsdiqləməyib və iqtisadi nəticələr və məşğulluq şəraiti baxımından mənfi təsirlənmiş olaraq qalır. Pandemiya zamanı işi uyğunlaşdırmaq üçün görülən bütün tədbirlərə baxmayaraq, biznes pandemiyaya qarşı həssas olaraq qalır. Məhdudlaşdırma tədbirləri yeniləndiyi təqdirdə, Avropa şirkətlərinin təxminən 90%-i öz əməliyyatları üçün mənfi nəticələri proqnozlaşdırır. Biznes işçi heyət üçün distant iş tələbinə, beynəlxalq səyahətlərin bağlanmasına və toplaşmalara qoyulan məhdudiyyətlərə ən həssas olaraq qalır. Yeni pandemiya dalğaları riskini azaltmaq üçün əksər Avropa şirkətləri (88%) işçiləri arasında vaksinasiyanın təşviqi və dəstəklənməsində fəal mövqe tutur.

**ŞƏKİL 1.10.** Azərbaycanda karantin məhdudiyyətləri qaldırıldıqdan sonra Avropa şirkətlərinin vəziyyəti




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

**ŞƏKİL 1.11.** Avropa şirkətlərində məşğulluğa və iş şəraitinə pandemiyadan qalan təsir




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

Pandemiyanın iqtisadiyyata böyük təsirinə baxmayaraq, KOB sektoru yüksək bərpa qabiliyyəti nümayiş etdirir. 2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunda Avropa şirkətlərinin təxminən 80%-i mənfəət, beynəlxalq və milli dövriyyələri də daxil olmaqla, iqtisadi nəticələrinə mənfi təsirləri təsdiqləyib. Ölkədə pandemiya ilə bağlı tədbirlərin aradan qaldırılmasından bir neçə ay sonra 2021-ci il sorğusunda Avropa şirkətlərinin yarıdan çoxu pandemiyadan əvvəlki hasilat səviyyəsinə çatdıqlarını və ya tezliklə çatmağı planlaşdırdıqlarını bildirib. Bununla belə, digər bizneslər hələ də təsir altındadır: respondentlərin təxminən 36%-i müəyyən çətinliklər yaşayır, 12%-i üçün isə pandemiyanın mənfi təsiri hələ də əhəmiyyətli dərəcədədir (Şəkil 1.10). Sektorlar baxımından ən pessimist cavablar turizm və otelçilik, dağ-mədən, neft-qaz müəssisələrinin nümayəndələri tərəfindən verilib. Eyni zamanda İKT, tikinti və mühəndislik daha az təsirlənmiş və ya ən sürətlə bərpa olunan sektorlar kimi görünür. Bu il cavab verən Avropa şirkətlərinin 47%-i (2020-ci ildə 63% ilə müqayisədə) tərəfindən pandemiyanın məşğulluq və iş şəraitinə mənfi təsirləri bildirilib. Şirkətlərin təxminən 20%-i yeni iş yerlərinin yaradılmasından yayınır (2020-ci ildə 42%) və respondentlərin təxminən 10%-i azaldılmış işçi sayını və ya natamam iş rejimini qoruyub saxlayır (2020-ci ildə 37% ilə müqayisədə). Respondent şirkətlərin təxminən 5%-də əmək haqqı hələ də pandemiyadan əvvəlki səviyyəyə çatmayıb (keçən il 33% ilə müqayisədə) (Şəkil 1.11). Əmək bazarına bir sıra mənfi təsirləri təsdiqləyən respondentlərin əhəmiyyətli hissəsi turizm və otelçilik sektorundan olub.

Pandemiya ilə bağlı məhdudiyyətlər zamanı işə uyğunlaşmaq üçün şirkətlər tərəfindən görülən bütün tədbirlərə baxmayaraq, şirkətlərin 90%-dən çoxu məhdudlaşdırma tədbirlərinin yenilənməsi ilə nəticələnən yeni pandemiya dalğası olacağı təqdirdə yenidən mənfi təsirə məruz qalacaqlarını bildirir. Avropalı investorlara xüsusilə təsir edən tədbirlərə işçi heyət üçün distant iş, beynəlxalq nəqliyyat əlaqələrinə və insanların toplaşmasına qoyulan məhdudiyyətlər daxildir (Şəkil 1.12).

Əhalinin vaksinasiyası pandemiyanın əhalinin həyatına və iqtisadiyyata təsirini azaltmaq üçün ən effektiv həll yolu olaraq qalır. Buna görə də, 2021-ci ildə uğurlu vaksinasiya kampaniyasının həyata keçirilməsi bütün ölkələr üçün mühüm vəzifəyə çevrildi. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2021-ci ilin dekabr ayına qədər 18 yaşdan yuxarı Azərbaycan əhalisinin təxminən 51%-i ən azı bir doza və 46%-i iki doza vaksin vurdurub. Əksər sektorlarda stabil işi təmin etmək çox vacib olduğundan Azərbaycanda özəl sektor vaksinasiyanı dəstəkləyir və onun təşviqinə kömək edir. 2021-ci il sorğusuna əsasən, Avropa bizneslərinin 65%-i vaksinasiyanı fəal şəkildə təşviq edir və 23%-i öz işçi heyətinin vaksin olunmasını dəstəkləyir. Şirkətlərin yalnız təxminən 10%-i bununla bağlı neytral qalır və 2%-i vaksinasiyanı dəstəkləmir (Şəkil 1.13).

**ŞƏKİL 1.12.** Pandemiya məhdudiyyətləri yeniləcəyi təqdirdə Avropa şirkətlərinin proqnozu




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

**ŞƏKİL 1.13.** İşçilərin vaksinasiyasına dair Avropa şirkətlərinin mövqeyi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

# 1.4 İNVESTİSİYA MÜHİTİ VƏ İMKANLAR

Bütün dünyada olduğu kimi, Azərbaycanda da Birbaşa Xarici İnvestisiyalar (BXİ) pandemiyanın başlanğıcından bəri azalıb, lakin 2021-ci ildə yerli investisiya mühiti nisbətən stabil olaraq qalır. Daxili bazarlara çıxış və strateji tərəfdaşlıq ənənəvi olaraq investorları cəlb edən əsas amillər kimi seçilib. 2021-ci ildə bizneslər Azərbaycanda siyasi, sosial və iqtisadi sabitliyin artdığını vurğulayıb və yeni investisiya müqavilələrini yüksək qiymətləndirib. Əvvəlki illərdə olduğu kimi, bir sıra amillər ölkədə investisiya mühitini çətinləşdirir. Bunlara aşağı qiymətləndirilən qanunun aliliyi, dövlət satınalmalarının şəffaflığı və maliyyəyə çıxış kimi amillər daxildir. Əlavə olaraq, gömrüklə bağlı hər iki göstərici 2020-ci illə müqayisədə 2021-ci ildə azalıb.

2021-ci ildə Avropa şirkətlərinin marağını artıran perspektivli büdcə ilə müşayiət olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni imkanlar elan edilib. Respondentlərin yarıdan çoxu bu əraziləri investisiya üçün nəzərə almağa hazırdır və daha ətraflı məlumatı və elan ediləcək layihələri səbirsizliklə gözləyir. Avropalı investorlar bu ərazilər üçün ən cəlbedici istiqamətlər arasında mülki tikinti, yaşıl və alternativ enerji layihələri və nəqliyyat infrastrukturunu seçir.

Dünya pandemiyası bütün dünyada investisiyaların kəskin azalmasına səbəb oldu. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) 2020-ci ildə qlobal Birbaşa Xarici İnvestisiyaların (BXİ) 35-40% azaldığını proqnozlaşdırıb.[30] İƏİT BXİ-nin 2020-ci il səviyyəsindən iki dəfədən çox artması (2021-ci ilin oktyabr ayınadək) və pandemiyadan əvvəlki 2019-cu il ilə müqayisədə 43% yüksək olması ilə 2021-ci ildə eyni bərpanın olduğunu bildirir.[31]

Azərbaycana investisiyalar 2017-ci ildən bəri yavaşlayıb və 2020-ci ildə pandemiyanın mənfi təsiri BXİ-yə daha çox zərbə vurub, nəticədə investisiyalar 2019-cu illə müqayisədə 60% azalıb. UNCTAD-ın məlumatına görə, BXİ son illərlə müqayisədə üçdə iki dəfə azalıb. Azərbaycana BXİ daxilolmaları 2019-cu ildə 1,5 mlrd. ABŞ dolları ilə müqayisədə 2020-ci ildə 507 mln. ABŞ dolları olarkən BXİ xaricolmaları 2019-cu ildə 2,4 mlrd. ABŞ dolları ilə müqayisədə 2020-ci ildə cəmi 825 mln. ABŞ dolları olub.30  Azərbaycan Mərkəzi Bankı vəsaitlərin 86%-nin neft və qaz sənayesinə yönəldilməsi ilə BXİ daxilolmalarının 2019-cu ildə 4,2 milyard ABŞ dollarından 2020-ci ildə 4,5 milyard ABŞ dollarına artdığını bildirən daha ümidverici nəticələr bildirir, qeyri-neft sektoruna BXİ isə 2018 və 2019-cu illərdə təxminən 1 mlrd. ABŞ dolları ilə müqayisədə 606 milyon ABŞ dollarına düşüb. Mərkəzi Bank həmçinin 2021-ci ilin ilk doqquz ayında BXİ-nin əvvəlki ilin eyni dövrü ilə müqayisədə təxminən 7% artaraq 3,7 milyard ABŞ dollarına çatdığını bildirir.[32]

Azərbaycanın 50-yə yaxın ölkə ilə, o cümlədən Aİ üzv dövlətlərinin əksəriyyəti ilə ikitərəfli investisiya və ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələr, həmçinin bir sıra ŞT, Mərkəzi Asiya ölkələri və Türkiyə ilə Azad Ticarət Sazişləri (ATS) mövcuddur. Ölkə onun avropalı investorlar üçün cəlbediciliyini daha da artıracaq ÜTT-yə üzvlük prosesini davam etdirir. İnvestisiyaların Təşviqi Sənədi (IPD) ölkədə yeddi il müddətinə vergi və gömrük tətilləri əldə etməyə imkan verir. Ölkədə beş sənaye parkı, dörd sənaye məhəllləsi və iki yüksək texnologiyalar parkını özündə birləşdirən bir neçə sənaye sahəsi fəaliyyət göstərir və inkişafını davam etdirir. Sahələr investorlara daha aşağı icarə dərəcələri, sadələşdirilmiş inzibati prosedurlar və qeydiyyata alındığı gündən 10 il müddətinə əmlak vergisi, torpaq vergisi, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədləri üçün idxal olunan maşın, texnoloji avadanlığa görə 7 il müddətinə ƏDV və gömrük rüsumlarından azad etmə ilə təmin edir.[i]

**Ələt Azad İqtisadi Zonası (AİZ)** hazırda inkişaf etməkdədir və ölkənin qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsini təşviq etmək üçün Bakı Limanının yanında yaradılmış perspektivli sənaye zonalarından biridir. Ələt AİZ 850 hektar ərazini əhatə edir və 2022-ci ilin iyul ayında investorları qəbul etməyə başlayacağı gözlənilir. Ələt AİZ-in əsas müştəriləri yüksək əlavə dəyərli və ixracyönümlü istehsal və xidmətlər, innovativ texnologiyalar və idarəetmə təcrübəsindən istifadə edərək beynəlxalq ticarət fəaliyyəti ilə məşğul olan bizneslərdir. Ələt AİZ daxilində yerləşən müəssisələr əlavə dəyər vergisi, vergitutma və ya digər şirkət vergilərindən azadolmaları əhatə edən güzəştlər almaq hüququna malikdir. Ələt AİZ-də olan xarici ixtisaslı kadrlar fərdi gəlir vergisi, sosial təminat ödənişləri və digər oxşar vergi və ödənişlərdən azaddır. Xarici ölkəyə hər hansı məhsul və ya xidmətlərin idxalı və ixracı gömrük rüsumlarından və vergilərdən, o cümlədən əlavə dəyər vergisindən azaddır. Xarici şirkətlərə tək səhmdarlar olaraq qalmalarına icazə verilir.[33]

Yerli bazara çıxış bu il investorların 72%-i, 2020-ci ildə isə respondentlərin 80%-i tərəfindən onları ölkəyə cəlb edən amil kimi seçilib. Ötən ilki sorğuda olduğu kimi, strateji tərəfdaşlıq və müttəfiqliklər 2021-ci ildə responpendentlərin 65%-nin qeyd etməsi ilə investorlar üçün vacib olaraq qalır, investorlar bunun investisiya qərarlarında bir amil olduğunu qeyd edir. Mövcud investisiya müqavilələri daha çox nəzərə çarpan olub, investorlar tərəfindən təqdir olunur. Əvvəlki ildə 17% ilə müqayisədə Avropa şirkətlərinin 27%-i 2021-ci ildə mövcud olan ölkədaxili təşviqləri cəlbedici amil kimi qeyd edib.

[i] Mövcud investisiya müqavilələri və sənaye sahələri haqqında ətraflı məlumatı AZPROMO-nun vebsaytında saytından əldə etmək olar. www.azpromo.az

Digər müsbət tendensiya Azərbaycanda texnologiyalara və ya biliyə çıxışa investorların diqqətinin artmasıdır ki, 2020-ci ildəki 16% ilə müqayisədə bu il respondentlərin 28%-i tərəfindən seçilib. Eyni zamanda “ixrac və sərhəd bazarlarına çıxış” getdikcə az əhəmiyyət kəsb edir və 2020-ci ildəki 37%-lə müqayisədə respondentlərin 30%-dən azı tərəfindən qeyd edilib. İnvestorları stimullaşdıran “istehsalın aşağı qiyməti”, “yarımfabrikatlara və təchizatçılara çıxış”, “təbii ehtiyatlara çıxış” və “təchizat zənciri riskinin diversifikasiyası”nı əhatə edən digər amillər keçən ilin nəticələrinə oxşar, ən az əhəmiyyətli olaraq qalır (Şəkil 1.14.).

Hər il Aİ Biznes Mühiti Sorğusu Avropa şirkətlərini Azərbaycanda investisiya mühitinin əsas göstəricilərini zəif-qənaətbəxş-güclü şkalasında qiymətləndirməyə dəvət edir. Bu, ümumi tendensiyaları, eləcə də ölkədə investisiya layihələrini həyata keçirən xarici investorların komfortunu başa düşməyə imkan verir (Şəkil 1.15). Sorğu 2020-ci ildə turbulentlik diapazonunu saxladı, lakin 2021-ci il sorğusunda bir çox göstəricilər yaxşılaşıb. Məsələn, həm **“siyasi və sosial sabitlik”**, həm də **“iqtisadi siyasətin proqnozlaşdırılması”** 2021-ci ildə yaxşılaşdırılıb və bu, yerli mühitdə artan proqnozlaşdırıla bilənliyi əks etdirir. **Miqrasiya, vergi siyasəti, əmək bazarı** və ölkənin infrastrukturu üzrə göstəricilər mülayim artımını davam etdirir və investorlar tərəfindən “qənaətbəxş” hesab edilir. Avropa şirkətləri baxımından aşkar irəliləyiş **“korrupsiyanın aradan qaldırılması üzrə tədbirlər”** (2020-ci ildə 15-ci yerdən 2021-ci ildə 11-ci yerə), eləcə də **“peşə təhsilinin keyfiyyəti”** göstəriciləri (2020-ci ildə 18-ci yerdən 2021-ci ildə 13-cü yerə yüksəlməsi) üzrə olmuşdur. Hər iki göstəricinin müsbət dinamikasına dövlət sektorunda rəqəmsallaşma üzrə davam edən yerli islahatlar və yeni PTT sistemi və infrastrukturunun işə salınması təkan verib.

2021-ci ildə investisiya mühitinin nümayiş etdirdiyi ümumi bərpa olunmaya baxmayaraq, bir sıra göstəricilər mənfi tendensiyalarını davam etdirib.

**ŞƏKİL 1.14.** Avropa şirkətlərini Azərbaycanda investisiya qoymağa və/və ya bizneslə məşğul olmağa cəlb edən amillər




**MƏNBƏ:** Aİ Biznes Mühiti Hesabatı 2021

**ŞƏKİL 1.15.** Avropa şirkətləri tərəfindən yerli göstəricilərin qiymətləndirilməsi




**MƏNBƏ:** Aİ Biznes Mühiti Hesabatı 2021

Məsələn, **"qanunun aliliyi"** 2020-ci ildə 13-cü yerdən 2021-ci ildə 16-cı yerə geriləyib, **"maliyyəyə çıxış"** da bir pillə geriləyib, **"dövlət satınalmalarının şəffaflığı"** 2020-ci illə müqayisədə bir qədər yüksək nəticələrlə ötən il olduğu kimi sonuncu yeri tutur. Bu, biznes mühitinin bu aspektləri ilə bağlı olan problemləri və onların təkmilləşdirilməsi üçün daha da prioritetləşdirilməyə artan ehtiyacı təsdiqləyir. (Ətraflı məlumat Bölmə 2.2-də verilmişdir.)

Yerli təchizatçılar ildən-ilə təkmilləşməyə davam edərək xarici investorları xarici təchizatlardən daha az asılı edir. Avropalı investorların 20%-dən çoxu bu il yerli təchizatçılardan razılığını təsdiqləyib. Ən güclü təkmilləşməni nümayiş etdirən göstəricilər arasında "biznes etikası və ödəniş intizamı" da var. Bu aspekt öz mövqeyini 2020-ci ildəki 16-cı yerdən 9-cu yerə yüksəldib. İnvestorların əksəriyyəti yerli təchizatçıların daha da təkmilləşdirilməsinə ehtiyac duyur. Prioritet problemlər bacarıq və qabiliyyət səviyyəsi, peşəkarlıq və keyfiyyət standartları olaraq qalır (Şəkil 1.16).

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına** Azərbaycan hökuməti tərəfindən 2021-ci ilin əvvəlində 1,3 mlrd. ABŞ dolları vəsait və 2022-ci ildə eyni büdcənin ayrılması (1,3 milyard ABŞ dolları) planlaşdırılan **yeni investisiya imkanları** elan edildi.[34] Vəsaitlər regionlarda infrastrukturun inkişafı layihələri, yaşıl/alternativ enerji layihələri və mədəniyyət elementləri üçün xərclənəcək. 2021-ci ilin dekabrında Prezident İlham Əliyev Zəngəzur dəhlizi boyunca Naxçıvanla birbaşa əlaqəni bərpa edəcək dəmir yolunun tikintisini elan edib.[35] Bundan başqa, hökumət regionlarda xarici şirkətlərin investisiya imkanlarını daha da genişləndirəcək Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı adlanan iki sənaye parkının yaradılmasını elan edib. 2021-ci ilin noyabr ayında İqtisadiyyat nazirinin son açıqlamasına görə, dəyəri 20 milyon avrodan çox olan təxminən 10 layihə yeni sənaye sahələrində qeydiyyatdan keçmək üçün artıq Nazirliyə təqdim olunub.[36] İqtisadi rayonlar öz nəqliyyat infrastrukturunu fəal şəkildə inkişaf etdirir. 2021-ci ildə Qarabağın Füzuli rayonunda yeni Beynəlxalq Hava Limanı tikilib, yaxın vaxtlarda Laçın və Zəngilanda daha iki hava limanının tikintisi nəzərdə tutulub ki, bu da regionda turizmin inkişafına təkan verəcək. Füzuli ilə Şuşanı birləşdirən avtomobil yolu 2021-ci ildə inşa edilib və 2021-ci ilin fevralında 2022-ci ilin sonunda başa çatdırılması planlaşdırılan Horadiz-Ağbənd dəmir yolunun tikintisinə başlanılıb.

"Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının iqtisadi regionların inkişafı üçün əhəmiyyətli olacağı gözlənilir. 2021-ci ildə Zəngilan rayonunun Ağalı kəndində əhalini alternativ enerji mənbələri ilə təmin edəcək "ağıllı kənd" pilot layihəsinin təməli qoyulub. 200 eko-ev, 360 şagird üçün ağıllı məktəb, 60 uşaq üçün bağça tikilməsi planlaşdırılır.[38] Zəngilan/Cəbrayıl rayonlarında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi üzrə əməkdaşlığa dair Energetika Nazirliyi ilə BP arasında 3 iyun 2021-ci il tarixində ilk irimiqyaslı saziş imzalanıb.[39]

**Ağdam Sənaye Parkı 2021-ci ilin mayında Prezidentin Sərəncamı ilə yaradılıb.**[40] Sənaye parkı 190 hektar ərazini əhatə edəcək və 2021-ci ilin dekabrına kimi 74 hektar ərazi minalardan təmizlənib. Park 33 iri müəssisədən, eləcə də sənaye, tikinti, logistika, qida istehsalı və s. sahələrdə fəaliyyət göstərən kiçik istehsal və xidmət müəssisələrindən ibarət olacaq. 330 iş yerinin yaradılması ilə Ağdam rayonuna təxminən 110 mln. ABŞ dolları investisiya qoyulacaq. İqtisadi Zonaların İnkişafı Agentliyinin bəyanatına əsasən, Ağdam Sənaye Parkına ilkin olaraq 14,7 mln. ABŞ dolları investisiya qoyulması, sonrakı mərhələdə 58,8 mln. ABŞ dollarının xərclənməsi nəzərdə tutulur.

Şərqi Zəngəzur iqtisadi rayonunda 200 hektar ərazini əhatə edən **"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı** yaradılacaq. Sənaye parkının yaradılması Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 oktyabr tarixli Fərmanı ilə müəyyən edilib.[42] İndiyədək ərazinin 105 hektara yaxını (52%) minalardan təmizlənib. Sənaye parkı maddi-texniki təchizatın təşkili və müasir texnologiyaların tətbiqi, xidmətlərin göstərilməsi üçün istifadə olunacaq rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalı, emalı (təkrar emal) və satışı ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu təmin edəcək, effektiv işin aparılması və sahibkarlığın inkişafına töhfə verəcək.

**ŞƏKİL 1.16.** Yerli təchizatçılarla bağlı Avropalı investorların rəyləri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Hesabatı 2021

2021-ci il Aİ Biznes Mühiti Sorğusuna əsasən, Avropa bizneslərinin yarıdan çoxu (54%) Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına mümkün investisiyalara maraq göstərdiyini bildirir. Bununla belə, şirkətlərin yalnız 14%-i artıq gələcək investisiyalar istiqamətində addımlar atıb, 40%-i isə hələ də yaxşı imkanlar və layihələrin elanını gözləyir. Respondentlərin 34%-i hələ iqtisadi rayonlara investisiya qoymağı fikirləşmir, lakin gələcəkdə belə imkanlara açıqdır və Avropa bizneslərinin yalnız 12%-i iqtisadi rayonlara investisiya imkanlarını nəzərə almır (Şəkil 1.17).

Mülki tikinti, alternativ enerji, yaşıl layihələr və nəqliyyat infrastrukturu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiyalar üçün ən cəlbedici istiqamətlər sırasındadır və respondentlərin 30%-dən çoxu tərəfindən seçilib. Avropa şirkətlərinin dörddə biri kənd təsərrüfatı və istehsala üstünlük verib və bu, regionlara investisiya üçün perspektivli istiqamət kimi də hesab edilə bilər (Şəkil 1.18.).

Müsahibələr zamanı Avropa şirkətləri vurğulayırlar ki, mövcud və ya planlaşdırılan investisiya layihələri haqqında məlumat və təfərrüatların olmaması əsas maneə olaraq qalır ki, bu da investisiya planlaşdırmasına başlamağa və investisiya ideyalarının praktiki mərhələyə keçirilməsinə imkan vermir.

> Şübhəsiz ki, Avropa şirkətləri işğaldan azad edilmiş ərazilərə investisiya imkanlarında, xüsusən də "ağıllı şəhər"in inkişafı və alternativ enerji layihələri ilə bağlı imkanlarda maraqlıdır. Lakin ümumi konsepsiyanın hökumət tərəfindən elan edilməsindən sonra özəl sektorla sonrakı kommunikasiya çox məhdudlaşdı. Bu günədək mövcud və ya planlaşdırılan investisiya layihələri ilə bağlı heç bir aydınlıq yoxdur, ona görə də şirkətlər diqqətlərini daha müəyyən imkanlara çevirməyə başlayır"
>
> Avropa tikinti şirkətinin baş direktoru

**ŞƏKİL 1.17.** Avropa şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoymağa hazırlığı




**MƏNBƏ:** Aİ Biznes Mühiti Hesabatı 2021

İqtisadi investisiya planının bir hissəsi olaraq Avropa İttifaqı 2022-ci ilin əvvəlində Azərbaycana 2 milyard avro məbləğində maliyyə paketi ayırmağa hazırlaşır. Aİ Azərbaycanda aparılan bərpa və yenidənqurma işlərində iştirak etməyə, Cənubi Qafqazda sülh quruculuğuna töhfə verməyə və tərəfləri barışdırmaq səylərini dəstəkləməyə hazır olduğunu təsdiq edir. Aİ həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası, ərazilərin minalardan təmizlənməsi prosesində maliyyə və texniki dəstək göstərməyə hazırdır. Bu baxımdan Azərbaycanda dövlət satınalmalarının şəffaflığı yenidən diqqəti cəlb edir. Aİ-nin iqtisadi investisiya planının effektiv icrasını təmin etmək üçün mövcud satınalma prosedurlarının yaxşı beynəlxalq təcrübə ilə uyğunlaşdırılması vacib olaraq qalır.

**ŞƏKİL 1.18.** Avropa şirkətləri tərəfindən Qarabağ və Şərqi Zəngəzurda nəzərə alınan investisiya istiqamətləri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Hesabatı 2021


KOB
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi
Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# 2 AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN İSLAHATLAR

## 2.1 YERLİ İSLAHATLARDA İRƏLİLƏYİŞ

Dövlət xidmətlərinin rəqəmsallaşdırılması ənənəvi olaraq 2021-ci il sorğusunda yerli islahatların reytinqində birinci yerdə qalır. **“ASAN”** və **“Elektron vergi”** platformaları öz vəzifələri ilə yanaşı, bürokratiyanın azaldılması, prosedurların sürətləndirilməsi və şəffaflığın artırılmasını effektiv şəkildə həyata keçirməklə stabil və istifadəsi asan alətlər kimi inamla birinci sıralarda yer alır. E-gömrük xarici biznes üçün ən çox gözlənilən islahatlardan biridir və ardıcıl ikinci ildir ki, üçüncü ən effektiv islahat olaraq seçilir. Bununla yanaşı, e-platforma ilə bağlı texniki problemlərin ləng aradan qaldırılması, eləcə də əməliyyat səviyyəsində hələ də vaxt aparan qərar qəbuletmə prosedurları səbəbindən gömrüklə bağlı prosedurlar bu il daha çox tənqidə məruz qalıb.

Avropa şirkətləri sosial və əməklə bağlı xidmətlər göstərən və filiallarının 2021-ci ildə genişləndirilməsini davam etdirən **DOST** mərkəzlərinin işini müsbət qiymətləndirir. **KOBİA** ilin nailiyyəti olub və sorğuda ilk 5 islahat arasında yer alıb. Agentlik regionlarda öz təşəbbüsləri və infrastruktur portfelini effektiv şəkildə genişləndirərək KOB-ların onun dəstəkləyici şəbəkəsinə çıxışını təmin edib. Sərhədlərin bağlanması və karantinin yaratdığı çətinliklərə baxmayaraq, **Azərbaycan Dövlət Miqrasiya Xidməti** kadrların qeyri-müəyyən rotasiyası dövründə müştəri yönümlü yanaşmasına sadiq qalır. Bazar hələ ixtisaslı kadrlara çıxış baxımından inkişaf hiss etməsə də, şirkətlər yeni **PTT** infrastrukturunda islahatlara nikbin yanaşır və yeni təlim ekosisteminin ehtiyacları ödəmək üçün inkişaf edəcəyini gözləyir.

2014-2015-ci illərdə neft-qaz sektorunda Azərbaycan iqtisadiyyatı üçün mənfi nəticələrə səbəb olan təlatümlərə cavab olaraq hökumət iqtisadiyyatın şaxələndirilməsini təşviq etmək və qeyri-karbohidrogen sektorlarını gücləndirmək üçün strateji qərar qəbul edib. O vaxtdan bəri ölkədə biznes mühitinin yaxşılaşdırılması, xarici investorların cəlb edilməsi və qeyri-neft sektorunda fəaliyyət göstərən KOB-ların gücləndirilməsi istiqamətində islahatlar həyata keçirilib. İslahatlar üçün siyasətin əsası Strateji Yol Xəritələri (2016)[12], eləcə də 2021-ci ilin fevralında yenilənmişi qəbul edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişaf üçün Milli Prioritetlər”[13] olub. İlk islahatlara başlanandan bəri Avropa şirkətləri son dövrlərdə yaradılmış qurumların davam edən tərəqqisi və effektivliyi haqqında öz fikirlərini və baxışlarını bölüşüb. 2021-ci ildə əldə edilmiş nəticələr Şəkil 2.1 və 2.2.-də öz əksini tapıb.

Əvvəlki illərdə olduğu kimi, dövlət xidmətlərinin rəqəmsallaşdırılmasına yönəlmiş islahatlar biznes ictimaiyyətinin ən yüksək rəğbətini qazanıb. 2016-cı ildən Avropa şirkətləri **ASAN-ı** əsas islahatların zirvəsi kimi seçir. O, Elektron Hökumətin İnkişafı Mərkəzinin dəstəyi ilə fəaliyyət göstərir, bürokratiyanı əhəmiyyətli dərəcədə azaldır, dövlət prosedurlarını sürətləndirir və korrupsiya risklərini azaldır. ASAN-ı digər mövcud rəqəmsal platformalarla müqayisə edərkən Avropa şirkətləri prosedurların aydınlığını və fərdi və ya şirkət tələblərini təmin etməyə çalışan müştəri yönümlü yanaşmanı vurğulayır. Avropa biznesləri adətən ASAN platformasından şirkətlərin qeydiyyatı, lisenziya və icazələrin alınması, e-imza (ASAN-İmza), miqrasiya və viza ilə bağlı xidmətlər (ASAN Viza) üçün istifadə edir, eləcə də COVID-19-la əlaqədar sərt karantin rejimi zamanı ofisdən işləyən işçilər üçün icazələrin alınması üçün istifadə edib.

ŞƏKİL 2.1. Avropa şirkətlərinin davam edən yerli islahatlara və yeni yaradılmış qurumlara baxışları




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2021

Ötən il ərzində ASAN müəssisələr üçün təşəbbüslərini genişləndirməkdə davam edib. Ailə Biznesinə ASAN Dəstək (ABAD) Proqramına əlavə olaraq 2021-ci ilin fevral ayında Vətəndaşlara Xidmət və İnnovasiyalar üzrə Dövlət Agentliyi, "500 Startap" şirkətinin tərəfdaşlığı və Paşa Holdinqin sponsorluğu ilə yeni "Azərbaycan 500 ASAN startap proqramı"na start verilib. Təşəbbüs azərbaycanlı startaplara öz bilik və bacarıqlarını artırmaq, habelə investorlara çıxışı asanlaşdırmaq üçün dəstək verir. Bu həm də ölkədə innovasiya ekosisteminin və infrastrukturunun ümumi inkişafına öz töhfəsini verir. Proqram startaplar üçün onlayn və oflayn təlimlər və tədbirlərdən ibarətdir. Ümumilikdə 1268 müraciətçi arasından 367 iştirakçı seçilib. 2021-ci ilin sentyabrında keçirilən yekun mərhələdə 10 startap komandası öz layihələrini investorlara təqdim edib.[44]

Vergi sahəsində islahatların aparılması səyləri də Avropa şirkətlərindən müsbət rəylər almağa davam edir. Respondentlər vergi hesabatlarının verilməsinin vaxtını azaldan və kölgə iqtisadiyyatı ilə mübarizədə mühüm əhəmiyyət kəsb edən **Elektron vergi sisteminin** artan effektivliyini bildirib. Müsahibələr zamanı avropalı investorlar elektron vergi xidmətini əməliyyat ehtiyacları üçün kifayət qədər anlaşıqlı və stabil platforma kimi təsvir edir. Şirkətlər həmçinin vergi orqanlarının elektron platformada texniki dəqiqləşdirmə və texniki məsələlərin həlli ilə bağlı fərdi müraciətlərə operativ reaksiyasından da razıdır. **Vergi məcəlləsinə yeni dəyişikliklər**[45] 2021-ci ilin dekabrında təqdim edilib və 2022-ci ilin yanvarında qüvvəyə minib. Beynəlxalq vergitutmaya daha çox aydınlıq gətirən müsbət dəyişikliklərə uyğun olaraq, dəyişikliklər Nəzarət Olunan Xarici Müəssisə konsepsiyasını, habelə ƏDV, ofşor, və digər vergilərlə bağlı bəzi azadolmalar təqdim edib, nəzarət mexanizmlərini və hesabat tələblərini gücləndirmək üçün bir sıra ciddi addımlar atılıb ki, bunun da mühasibatlıq iş yükünü artıracağı gözlənilir. Yeni qanunvericilik aktı həmçinin əvvəlki yoxlanılan dövrlər daxil olmaqla vergidən yayınma sxemlərinin müəyyən edilməsi üçün vergi orqanlarının hüquqlarını əhəmiyyətli dərəcədə genişləndirib, o cümlədən vergi ödəyicilərinin öhdəliklərinə əlavələr edilib və pozuntulara görə maliyyə sanksiyaları artırılıb. Yeni tədbirlər kölgə iqtisadiyyatı ilə mübarizə səylərinin məntiqi davamı idi və onların səmərəli icrası son beş ildə tədricən yaxşılaşan və yenicə yerli biznes mühitinə müsbət təsir göstərməyə başlamış vergi işçilərinin biznesə qarşı sui-istifadə və cəzalandırıcı davranışlarının qarşısını almaq üçün hökumətdən qərəzsiz və effektiv nəzarət tələb edəcək.

Gömrükdə elektron xidmətlərin istifadəyə verilməsi 2016-cı ildən bəri xarici bizneslər tərəfindən ən çox gözlənilən islahatlardan biridir. O, gömrük rəsmiləşdirilməsi prosedurları üçün vaxt və xərclərin azaldılmasını hədəfləyir. **Elektron Gömrük və Yaşıl Dəhliz** 2018-2019-cu illərdə tam fəaliyyətinə başlamış və xüsusilə brokerlərin aradan qaldırılması və korrupsiya risklərinin, əməliyyat xərclərinin və rəsmiləşdirmə üçün vaxtın azaldılması sayəsində 2020-ci il üzrə Aİ Biznes Mühiti Hesabatında şirkətlər tərəfindən yüksək qiymətləndirilib. E-gömrük ötən illə müqayisədə bir qədər aşağı qiymətləndirilsə də, (2020-ci ildəki 6,26 ilə müqayisədə 6,1) 2021-ci ildə ilk 5 islahat arasında qalır. Gömrük rəsmiləşdirilməsi proseduru və gömrük tarifləri üzrə də cüzi azalma müşahidə edilib (Şəkil 1.15.). Üzbəüz müsahibələr zamanı şirkətlər elektron platformadan istifadə edərkən çoxlu sayda texniki problemlə əlaqədar gömrükdə fəsadların olduğunu, gömrük orqanlarının oflayn müdaxiləsini zəruri etdiyini, COVID-19 ilə əlaqəli məhdudiyyətlər dövründə bunun həyata keçirilməsinin daha da çətin olduğunu qeyd edib. Rəsmiləşdirmədə gecikmələrə səbəb olan digər aspekt son liberallaşdırma tədbirləri ilə əlaqədar hələ də vaxt aparan qərarların qəbulu prosesi ilə bağlıdır.

Belə şəraitdə sıfır vergi və ya rəsmiləşdirmə üçün xüsusi şərtlərin tətbiqi çətin olaraq qalır və gömrük prosedurlarının vaxt baxımından proqnozlaşdırılmasını mümkünsüz edir.

Bununla belə, Avropa şirkətləri Dövlət Gömrük Komitəsi sədrinin nümayiş etdirdiyi dialoqa açıqlığı yüksək qiymətləndirir və davam edən islahatlardan bütün faydaları əldə etməyə başlayacaqlarından ümidlidir. 2021-ci ildə ÜTT-nin Ticarətin Asanlaşdırılması Sazişinin 7.7-ci maddəsinə uyğun olaraq,[47] Dövlət Gömrük Komitəsi Aİ tərəfindən maliyyələşdirilən layihənin dəstəyi ilə mövcud qaydaların nəzərdən keçirilməsini və biznes operatorları üçün gömrük rəsmiləşdirilməsini liberallaşdıran daha bir mexanizm olması gözlənilən Səlahiyyətli İqtisadi Operator proqramı üçün normativ bazanın hazırlanmasını davam etdirib.

> Effektiv və proqnozlaşdırıla bilən gömrük prosedurları logistika və nəqliyyatın inkişafı üçün çox vacibdir. Azərbaycanda gömrük sahəsində aparılan struktur islahat, çox güman ki, özəl sektorun artan gözləntilərini təmin etməyə başlamaq üçün daha çox vaxt tələb edir. 2021-ci ildə nə yeni rəqəmsal platforma, nə də Yaşıl Dəhliz hələ nəzərdə tutulduğu kimi işləmir. Çoxlu sayda yeni qaydalar və prosedurlar səbəbindən gömrük işçiləri həddindən artıq ehtiyatlı olaraq qalır və qərarların qəbulunu daha yüksək səviyyəli menecerlərə ötürməyə meyllidir. Beləliklə, Yaşıl Dəhliz çərçivəsində nəzarətdən sürətlə keçməli olan konteynerlər əlavə araşdırma obyektinə çevrilir”.
>
> Avropa nəqliyyat və logistika şirkətinin baş direktoru

Sosial islahatlar arasında şirkətlər əhalinin bütün qrupları üçün sosial və əmək xidmətləri göstərən vahid pəncərə kimi fəaliyyət göstərən **DOST mərkəzlərinin** işi ilə bağlı müsbət rəylər verir. 2021-ci ildə daha iki DOST mərkəzi fəaliyyətə başlayıb (4 saylı Bakı DOST Mərkəzi və Abşeron DOST Mərkəzi). Agentlik 2025-ci ilə kimi 2022-ci ildə Şuşada açılacaq agentlik daxil olmaqla müxtəlif regionlarda 17 fiziki mərkəzə qədər genişlənməyi planlaşdırır. 2021-ci ildə DOST Agentliyi Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP), Beynəlxalq Əmək Təşkilatı (BƏT), Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu (UNPF) və s. kimi beynəlxalq təşkilatlar ilə əməkdaşlıq çərçivəsində bir neçə proqram həyata keçirib. Səmərəliliyinin beynəlxalq təsdiqi olaraq DOST Agentliyi Avropa Sosial Şəbəkəsi tərəfindən elan edilən Avropa Sosial Xidmətlər Mükafatında (ESSA 2020) finalçılar siyahısına daxil edilmişdir.[48] Sorğu həmçinin Azərbaycanda müqavilə əsasında işləyənlər, aztəminatlı, aşağı gəlirli işçilər, işsizlər daxil olmaqla əhalinin müxtəlif qruplarını dəstəkləyən COVID-19-a qarşı hərtərəfli cavab tədbirlərini, eləcə də fərdi sahibkarlara xüsusi dəstəyi əhatə edən davam etməkdə olan **əmək və sosial müdafiə islahatları** ilə bağlı müsbət tendensiyaları izləyir. Eyni zamanda, son illərin pandemiya mühitində baş verən iqtisadiyyatdakı çətin vəziyyət, artan inflyasiya və işsizlik səbəbindən pandemiya ilə bağlı tədbirlərin müsbət təsirləri azalıb.

2021-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunda islahatlar arasında birinci ötən illə müqayisədə mövqeyini əhəmiyyətli dərəcədə yaxşılaşdıran (2020-ci ildəki 5,1 bal ilə müqayisədə 2021-ci ildə 6,04 bal) **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)** oldu və öz mövqeyini ən effektiv ilk 5 islahat sırasında qoruyub saxlayır. Xarici investorların hələ də Agentliklə işləmək təcrübəsinin məhdud olmasına baxmayaraq, onlar KOBİA tərəfindən KOB-ları dəstəkləmək üçün təqdim olunan xidmət və proqramlardan xəbərdardır və onları faydalı və səmərəli hesab edir. Agentlik 2018-ci ildə fəaliyyətə başladıqdan sonra Bakıda və regionlarda “KOB Evləri” (e-KOB Evi də daxil olmaqla) vasitəsilə biznesləri dövlət xidmətləri ilə və “KOB Dəstək Mərkəzləri” əsasında konsaltinq, dəstək xidmətləri ilə təmin edən infrastrukturunu qurub. 2021-ci ildən etibarən KOBİA xidmətləri Agentlik və digər dövlət qurumları arasında körpü kimi fəaliyyət göstərən “KOB Dostları” şəbəkəsi vasitəsilə 25 bölgəni əhatə edir. 2021-ci ildə Agentlik bazar araşdırması üçün maliyyə, startaplara qrant dəstəyi, rəqəmsallaşma, kreditləşdirmə, PR və digər mövzularda təlimlər daxil olmaqla biznes üçün proqramlar portfelini genişləndirməyə davam etdi. Bazara çıxış Agentliyin əsas diqqət mərkəzində qalır və o, KOB-lara yarmarkalarda, sərgilərdə və s. iştirakda köməklik göstərir. Növbəti illərdə KOBİA maliyyəyə çıxış üzrə Sahibkarlığın İnkişafı Fondu ilə əməkdaşlıq çərçivəsində yeni təşəbbüslər daxil olmaqla öz infrastruktur və proqramlarını genişləndirməyə davam etdirməyi planlaşdırır.14 Avropa şirkətləri perspektivindən KOB-lara dəstək üzrə milli səviyyəli qurumun fəaliyyətə başlaması hökumətin elan etdiyi kiçik və orta biznesin inkişafının prioritetliyini göstərir və iqtisadiyyatın şaxələndirilməsi üçün mühüm olaraq qalır.

"Ölkədə KOBİA kimi quruma real tələbat var. Böyük şirkətlərdən fərqli olaraq, kiçik biznes həmişə daha həssas olaraq qalır və xüsusilə inkişafın ilkin mərhələlərində xüsusi dəstəyə ehtiyacı var. Lakin inkişaf etmiş KOB sektoru daha sonra Azərbaycanın strateji baxışına uyğun olaraq onun iqtisadiyyatının şaxələndirilməsinə və rəqabətqabiliyyətliliyinə təminat verən ölkənin onurğa sütununa çevrilir. Deməli, belə bir qurumun milli səviyyədə yaradılması atılan doğru addım idi. Belə görünür ki, keçən il KOBİA fəaliyyətini ciddi şəkildə genişləndirib, çünki onlarla birbaşa işləməsək də, biz həmişə onlar haqqında eşidirik."

Avropa konsaltinq şirkətinin baş direktoru

"Şirkətimizin bir neçə ölkədə nümayəndəlikləri var və son illər kadrların rotasiyası baxımından son dərəcə çətin olub, hər yerdə karantin məhdudiyyətlərinin daim yenilənməsi səbəbindən planlaşdırmaq mümkün olmayıb. Azərbaycanda olmasa da, bu məsələ ilə bağlı çox çətinliklər yaşadıq. Bunun əksinə olaraq, yerli miqrasiya xidməti anlayış nümayiş etdirdi və həmişə kömək etməyə çalışdı. Bu, indiyədək Azərbaycanda dövlət xidməti ilə əməkdaşlıq təcrübələrimizin ən yaxşılarından biridir."

Avropa mühəndislik şirkətinin baş direktoru

2021-ci ildə Azərbaycanda miqrasiya prosedurları Avropa biznesləri perspektivindən öz təkmilləşməsini davam etdirib. Pandemiyanın bütün dünyada miqrasiyaya gətirdiyi çətinliklərə baxmayaraq, şirkətlər **Azərbaycan Dövlət Miqrasiya Xidmətinin** işindən razı olaraq qalır. COVID-19 ilə bağlı sərt tədbirlərin tətbiq olunduğu və qapalı sərhədlər dövründə investorlar rotasiya planlarında dəyişikliklər, iş icazələrindəki yeniləmələr və s. ilə bağlı Xidmətə tez-tez müraciət etməli olub. Təqdim olunan rəylərə əsasən, Xidmət kommunikasiya üçün açıq qalıb və bu çətin dövrdə ehtiyacları vaxtında qarşılamağı qarşıya məqsəd qoyub. Artıq miqrasiya xidmətlərinin əksəriyyəti ASAN çətiri çərçivəsində rəqəmsal formatda mövcuddur və artıq dördüncü ildir ki, "ASAN xidmət indeksi"ndə ən yüksək nəticələr əldə etməklə onların yüksək keyfiyyət və səmərəliliyini təsdiqləyir.[49] 2021-ci ildə investorlar üçün daha bir mühüm irəliləyiş 2021-ci ilin iyun ayında AFchamber tərəfindən təşkil olunan xarici şirkətlərlə görüş zamanı Dövlət Miqrasiya Xidmətinin rəisi tərəfindən təqdim olunan ölkələr üzrə kadrlar üçün qalan kvotalar haqqında son məlumatlara çıxışın açılması olub. Yeni variant xarici şirkətlərə kadrların rotasiyasını izləməyə və effektiv şəkildə planlaşdırmağa imkan verir və Avropa biznesləri tərəfindən bəyənilib.

2021-ci ildə Azərbaycan hökuməti PTT idarəçiliyinin daha da təkamülünü, infrastrukturun inkişafını, PTT-nin özəl sektorla əlaqəsini genişləndirməyi və onun maliyyələşmə mexanizmlərində islahatları əhatə edən **PTT islahatlarına** dəstəyini davam etdirib. Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi (PTDA) PTT idarəetməsində Təhsil İnstitutunun Ömürboyu Təhsil şöbəsi və Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə əməkdaşlıq edən aparıcı qurumdur. İşlərin digər hissəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) nəzdində davam etdirilir.

Tələbələrin ixtisaslarını bazarın tələblərinə uyğunlaşdıraraq kurikulumların və peşə təhsili standartlarının yenilənməsi üçün göstərilən səylər özəl sektor tərəfindən ən yüksək qiymətə layiq görülməyə davam edir. 2021-ci ildə əmək bazarının tələblərinə uyğun olaraq altı mövcud ixtisas yenilənib və 19 yeni PTT ixtisası (4 texniki və 15 ali texniki kurslar üzrə) hazırlanıb. Bakı, Gəncə, Bərdə və Qəbələdə yeni yaradılmış 15 ali texniki peşə təhsili kurslarına ilk dəfə olaraq 840 tələbə qəbul olub.[50] Müxtəlif hökumət təşəbbüsləri bu il özəl sektoru PTT-nin inkişafına yaxınlaşdırmağa davam etdi. Son illərdə daha bir mühüm addım Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən həyata keçirilən qeyri-formal və informal sxemlər vasitəsilə əldə edilmiş səriştələrin tanınması üçün hüquqi bazanın yaradılması oldu.





Azərbaycan ondan çox peşə məktəbində obyektlərin təmiri və 60-dan çox peşə təhsili müəssisəsinin yenidən təchiz edilməsi daxil olmaqla, PTT infrastrukturunun modernləşdirilməsini davam etdirdi. İlk dəfə olaraq Bakı, Qəbələ və Gəncədə üç peşə təhsili mərkəzi publik hüquqi şəxs, İsmayıllı Tədris Mərkəzi isə Peşə Təhsili Mərkəzi statusu alıb. 2021-2022-ci illər üçün 66 peşə məktəbində onlayn tələbə qəbulu prosesi həyata keçirilib. Nəticədə ötən illə müqayisədə abituriyentlərin sayı 26%, qəbul olunanların sayı isə 12,5% artıb. Ümumilikdə, bu il 24623 tələbənin qəbul olunması ilə 72 peşə təhsili müəssisəsi fəaliyyət göstərib.[51] ƏƏSMN Peşə Təhsil Mərkəzlərində (PTM) işsiz şəxslər üçün qısamüddətli təlim kurslarının təşkilində Dövlət Məşğulluq Agentliyinin rolunu gücləndirir. 2021-ci ildə dörd PTM-də (Bakı, Göyçay və Gəncə şəhərlərində) qısamüddətli təlim kursları keçirilib və 2030-cu ilə qədər onların sayının 10-a çatdırılması planlaşdırılır.

Əhəmiyyətli irəliləyişlərə baxmayaraq, hazırkı mərhələdə yeni PTT infrastrukturunun imkanları və onun məzunlarının sayı ixtisaslı kadrlara çıxış sahəsində bazarda yığılmış boşluğu ödəmək üçün hələ kifayət deyil. Avropa şirkətləri sorğu vasitəsilə bu aspekti vurğulamaqda davam edir (Şəkil 1.3., 1.15.) və islahat əmək bazarına praktiki dəyişikliklər gətirməyə başlayanadək daha da prioritetləşdirməyə ehtiyac olduğunu görür. Avropa şirkətləri tərəfindən PTT islahatına hər il nümayiş etdirilən yüksək marağı nəzərə alaraq, onun irəliləyişi barədə Əlavə 3-də ətraflı məlumat verdik.

## 2.2 AVROPA ŞİRKƏTLƏRİ TƏRƏFİNDƏN GÖZLƏNİLƏN ƏLAVƏ TƏKMİLLƏŞDİRMƏLƏR

Avropalı investorlar **qanunun aliliyinin təmin edilməsini** yerli biznes mühitinin yaxşılaşdırılması üçün prioritetləşdirilməli olan əsas sahə kimi görməkdə davam edir. Son illərdə edilən dəyişikliklər investorlar tərəfindən əsas məsələləri həll etməyən kiçik prosedur dəyişiklikləri kimi qəbul edilir. Hökumətin məhkəmə qoluna dair təsəvvürlərin yaxşılaşdırılması məhkəmələrin şəffaflığını və qərəzsizliyini artırmaq məqsədilə hərtərəfli islahatları tələb edəcəkdir.

Qarşıdan gələn ambisiyalı dövlət layihələri investorların diqqətini cəlb edib və **dövlət satınalmaları** sistemini daha da təkmilləşdirilməsi üçün əsas prioritetlər sırasına qoyub. 2021-ci il ərzində qanunvericiliyə bir sıra dəyişikliklər edildi və bunlar prosedurlara müəyyən aydınlıq və özəl sektora bir qədər nikbinlik gətirdi. Şirkətlər gələcək imkanlar üçün bərabər və şəffaf rəqabəti təmin etmək məqsədilə bu sahədə daha da prioritetləşdirmə gözləyir.

2014-2015-ci illərdəki təlatümlərdən sonra maliyyə sektorunun ümumi sabitləşməsinə baxmayaraq, **biznes üçün maliyyəyə hələ də məhdud çıxış** zəif nöqtə olaraq qalır. Dövlət Sahibkarlığın İnkişafı Fondu və BMİ-lərin proqramları özəl sektoru sərfəli məqsədli kreditlərlə təmin edir, lakin bütün bazarın tələbatını ödəyə bilmir. Yerli banklar üçün daha ucuz vəsaitlərin əlçatanlığının artırılmasına ehtiyac var. Eyni zamanda, KOB-larla iş onların maliyyə savadlılığını və şəffaflığını daim artırmalı, həmçinin kredit layihələrinin hazırlanması bacarıqlarını təmin etməlidir.

Aİ Biznes Mühiti Sorğusunda ənənəvi sual Avropa şirkətlərinin gələcək islahatlarla bağlı gözləntilərinə həsr olunub. Bu sual digər toplanmış göstəricilərlə birlikdə islahat gözləntiləri ilə həyata keçirilməsi arasındakı gecikmələr üzrə kompleks şəkilləri tərtib etməyə imkan verir (Şəkil 2.2.). Bu ilin ən güclü prioritetləri arasında qanunun aliliyinə, maliyyə sektoruna və maliyyəyə çıxışa həsr olunmuş islahatlar qalmaqdadır. 2021-ci il sorğusunun nəticələri də dövlət satınalmalarının şəffaflığına artan tələbi təsdiqlədi. İlk 5 prioritet arasında gömrük və peşə təhsili sahəsində davam edən islahatlar var ki, bu islahatlar hələ də gözlənilən irəliləyişlərlə nəticələnməyib (bax. Bölmə 2.1). 2021-ci il sorğusunda ÜTT-yə üzvlük prioritet olmasa da, davam edən proses praktiki baxımdan şirkətlər tərəfindən seçilmiş bir sıra əsas aspektləri təkmilləşdirmək potensialına malikdir. ÜTT qanunun aliliyinin əsasını təşkil edir və üzv dövlətlərdən sərhəddə ticarəti asanlaşdıran çoxsaylı tədbirlər həyata keçirməyi tələb edir. Bundan əlavə, üzvlük öhdəlikləri immiqrasiya ilə bağlı aspektləri əhatə edir. Bu baxımdan, ÜTT-nin prinsip və qaydalarını daxili qanunvericiliyə daxil etməklə Azərbaycan avropalı investorların ən çox gözlədiyi yerli islahatları həyata keçirir.

Əvvəlki illərdə olduğu kimi, avropalı bizneslər investorlar üçün **qanunun aliliyinin təmin edilməsini** Azərbaycanda prioritetləşdirilməli olan mühüm islahat kimi görür. İslahat 2021-ci ildə əksər respondentlər (52%) tərəfindən prioritet kimi seçilib ki, bu da keçən ilki nəticə ilə oxşardır (51%) və effektiv və müstəqil məhkəmə üçün güclü tələbi təsdiqləyir.

2016-cı ildə məhkəmə-hüquq sistemində islahatlara başlanıldıqdan və 2019-cu ildə Prezidentin sərəncamı ilə[52], daha da gücləndirildikdən sonra bir sıra mühüm addımlar atılıb. 2019-cu ildə Kommersiya Məhkəmələrinin yaradılması kommersiya mübahisələrinin həllinin effektivliyini artırmaq məqsədi daşıyır. Bununla belə, bu məhkəmələr biznes qurumları tərəfindən hələ effektiv olaraq qiymətləndirilmir (Şəkil 2.1.). Aİ və başqa layihələr çərçivəsində kommersiya hakimlərinin kvalifikasiyalarının artırılması üçün müəyyən tədbirlər görülüb, lakin bu, hələ də kommersiya mövzularına həsr olunmuş intensiv və müntəzəm təlimlər vasitəsilə daha da təkmilləşdirməni tələb edir. İcra prosedurları da problemli olaraq qalır. İcra orqanları həddindən artıq yüklənib və məhkəmə qərarlarının icrası üçün effektiv mexanizmlər yoxdur. Yuxarıda göstərilən Prezident sərəncamında qeyd olunan icra üçün alternativ icra mexanizmləri, o cümlədən özəl icra xidmətləri Azərbaycanda hələ də tətbiq edilməyib.[52]

2020-ci ilin iyul ayında "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklər məhkəmələrin fəaliyyətinin səmərəliliyini artırmaq üçün bir cəhd olsa da, beynəlxalq ictimaiyyət tərəfindən tənqidi şərhlər alıb. Dəyişikliyə əsasən, hakimlərin (ilk dəfə təyin olunanlar istisna olmaqla) fəaliyyəti Məhkəmə-Hüquq Şurası tərəfindən qiymətləndiriləcək və peşəkar çatışmazlıqlar, habelə maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanlara yol verildikdə, onların səlahiyyətlərinə vaxtından əvvəl xitam veriləcək.[53] Bununla belə, Şuraya hakimlərin vəzifəsinə xitam vermək səlahiyyətini verən icra hakimiyyətinin nümayəndəsi rəhbərlik edir ki, bu da ölkədə müstəqil məhkəmə sisteminin Azərbaycan Respublikasının Konstitusiyasında (1995) təsbit olunmuş prinsiplərə uyğun inkişafına kömək etmir.[54]

Azərbaycanda məhkəmə prosedurlarının rəqəmsallaşdırılması 2014-cü ildə tətbiq edilən elektron məhkəmə sisteminin işə salınması vasitəsilə həyata keçirilib və bu, bürokratiyanın azaldılması və mühakimə prosesinin şəffaflığının təşviq edilməsi məqsədilə vəkillərə öz elektron imzalarından istifadə etməklə şikayətləri elektron qaydada təqdim etməyə imkan verib. Elektron məhkəmə platforması artıq fəaliyyətdədir və müsbət nəticələr verməyə başlayıb. O, eyni zamanda, məhkəmə prosesi ilə bağlı bütün ehtiyacları ödəmək məqsədilə texniki imkanları təmin etmək üçün daha çox inkişafı tələb edir.

**ŞƏKİL 2.2.** Avropa şirkətləri tərəfindən gözlənilən yerli islahatlar




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

Məhkəmə sisteminin yükünü azaltmaq məqsədilə Azərbaycan mübahisələrin alternativ həlli üçün qərəzsiz mexanizm təqdim edib. 1 iyul 2021-ci il tarixindən qüvvəyə minən "Mediasiya haqqında" qanuna edilən dəyişiklik[55], kommersiya, ailə, o cümlədən əmək münasibətlərindən irəli gələn mübahisələrin yerli məhkəmələrə verilməsi üçün ilkin mediasiya prosedurunda məcburi iştirakı şərt kimi müəyyən edir. "Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası"na uyğun olaraq mediasiya təlim qurumları mediatorların ilkin hazırlığını və peşəkarlığının artırılmasını həyata keçirir.[56] 2022-ci ilin yanvar ayına olan məlumata görə, 300-dən çox mediator təlimdən uğurla keçib və onlardan 250-yə yaxını Mediasiya Şurasına üzv olub[57].

Mediasiya bir çox Avropa ölkəsində tətbiq edilir, lakin yalnız bəzilərində məcburi olaraq qalır (məsələn, İtaliya, Yunanıstan). Effektiv mediasiya, xüsusən də kommersiya mübahisələri ilə bağlı mediasiya, həll tərəflərinə rəhbərlik edən fəal və təcrübəli peşəkar mediatorları, habelə mübahisələrin alternativ həlli üçün mədəniyyətin inkişaf etdirilməsini tələb edəcək. Azərbaycanda belə yaxşı təcrübənin inkişafı müəyyən vaxt tələb edir. Mediasiyanın səmərəliliyi üçün digər mühüm amil mediasiya proseduru zamanı tərəflərin şəxsi iştirakıdır ki, bu hazırda Azərbaycanda yoxdur və təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, ölkədə qanunun aliliyi ilə bağlı problemlərin həlli uzunmüddətli fəaliyyət tələb edir və təkcə daxili islahatların həyata keçirilməsindən deyil, həm də onların ölkədə və beynəlxalq aləmdə təşviqindən və özəl sektora çatdırılmasından asılıdır. Məsələn, müsahibələr zamanı hüquq firmaları daha yaxşı prosedurlar və şəffaflıqla nəticələnən islahatlar və bəzi irəliləyişlər barədə məlumatlı olduqlarını təsdiq edir. Lakin adi Avropa şirkətlərinin perspektivindən sistem bürokratik, qeyri-şəffaf və islahatların aparılmadığı sahə imicini qoruyub saxlayır ki, bu da onları xarici məhkəmələri seçməyə davam etməyə vadar edir. Bu baxımdan bəzi Avropa şirkətləri **Ələt AİZ** ərazisində beynəlxalq məhkəmənin yaradılmasına nikbin yanaşır və bu təcrübənin investorlar üçün digər infrastrukturlarda daha da genişləndirilməsinə ümid edir. Milli məhkəmə sahəsi öz islahatlarını və təkmilləşdirmələrini davam etdirərkən bu beynəlxalq məhkəmələrin müstəqilliyinin həm formal, həm də praktiki təmin edilməsi şərti ilə, belə təcrübə investorların etibarlı məhkəmələrə çıxışını təmin etmək üçün sürətli bir üsul ola bilər.

İnvestorların hüquqlarının müdafiəsinin prioritetləşdirilməsi ilə bağlı daha bir güclü siqnal qanunun aliliyi sisteminin atributlarının lazımi qaydada və effektiv şəkildə həyata keçirilməsi və tətbiqi üçün tənzimləyici və institusional çərçivələrə bütün lazımi düzəlişlərin edilməsini nəzərdə tutan ölkənin ÜTT-yə daxil olması ilə verilə bilər. ÜTT Sazişlərinin çoxsaylı müddəalarında təmin edilən qanunun aliliyi prinsipinin əsas atributları arasında qanunvericiliyin işlənib hazırlanması və qəbulunda şəffaflıq; hökumətin bütün səviyyələrində vahid, qərəzsiz və ağlabatan şəkildə mal və xidmətlərin ticarəti ilə bağlı qanunların, qaydaların və digər tədbirlərin tətbiqi, həyata keçirilməsi və idarə edilməsi yer alır. Bu halda, ölkənin ÜTT-yə üzvlüyü faktı investorların hüquqları pozulduğu halda onların hüquqlarını təmin etmək üçün əlavə alətlər təmin edər.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında layihələr üzrə büdcə xərclərinin artırılması və yeni imkanların açıqlanması Azərbaycanda özəl sektorun **dövlət satınalma prosedurlarına və onların şəffaflığına** marağını gücləndirib. Mövzu keçən il 29%-lə müqayisədə 2021-ci il Aİ Biznes Mühiti Sorğusunda respondentlərin 42%-i tərəfindən prioritet olaraq seçilib. Mövcud beynəlxalq icmallara görə, ölkədə dövlət satınalmalarında kifayət qədər şəffaflıq yoxdur. Satınalma prosedurları 2019-cu ildə İnformasiya Azadlığının İnkişafı İnstitutu (IDFI) tərəfindən həyata keçirilən "Şəffaf Dövlət Satınalmaları Reytinqi" (TPPR) çərçivəsində qiymətləndirilib və 55,2% nəticə ilə 31 ölkə arasında 27-ci yeri (86,1%-lə / 3-cü yer Gürcüstan və 97%-lə / 1-ci yer Ukrayna ilə müqayisədə) əldə edib.[58]

> Gündəlik işi hüquq sistemi ilə bağlı olan hüquq məsləhətçiləri kimi biz son bir neçə ildə hakimlərin operativ işində və şəffaflığında irəliləyişlərin olduğunu görə bilərik, baxmayaraq ki, tətbiq edilən dəyişikliklər hələ də bu sahədə qabaqcıl beynəlxalq təcrübəyə cavab vermir. Digər tərəfdən, bu islahatlar özəl sektora yetərincə çatdırılmayıb. Beləliklə, orta şirkət baxımından çox az şey dəyişib. Təəssüf ki, əksər xarici investorlar öz hüquqlarını Azərbaycan məhkəmələrində effektiv şəkildə müdafiə etmək imkanlarına şübhə ilə yanaşır və potensial mübahisələrin beynəlxalq arbitraja təqdim edilməsinə üstünlük verir. Bu isə ölkənin beynəlxalq imici üçün ciddi problem olaraq qalır."
>
> Avropa hüquq konsaltinq şirkətinin partnyoru

Mövcud "Dövlət satınalmaları haqqında" qanuna əsasən[59], qiyməti 50 min manatla 3 mln. ABŞ dolları arasında olan layihələr (26 min avrodan 2,66 mln. avroya qədər) xüsusi elektron satınalma platforması vasitəsilə açıq tender prosedurları ilə həyata keçirilməlidir. Platforma ölkədə üç ildir fəaliyyət göstərsə də, o, özəl sektor tərəfindən istifadəçi yönümlü təlimatları olmayan mürəkkəb alət kimi görünməyə davam edir. Tenderlərdə yalnız ixtisaslı mütəxəssisləri olan iddiaçıların fəal iştirak edə bildiyi belə bir vəziyyət bu sahədə kifayət qədər hazırlıqlı olmayan mikro/kiçik şirkətlər və startaplar üçün maneə yaradır.

Bununla belə, dövlət satınalmalarının əsas çatışmazlığı elektron platformanın, eləcə də Azərbaycan tənzimləmə mühitində şəffaflığının olmamasıdır ki, bu da maraqların toqquşmasının qarşısını almağa kömək etmir. Azərbaycanda yerli şirkətlərin mülkiyyətinə dair məlumatlar ictimaiyyət üçün qapalıdır və dövlət məmurları öz aktivlərini açıqlamağa məcbur deyil. Tenderlərin nəticələrinə dair verilən məlumatlar onların səmərəliliyi barədə nəticə çıxarmaq üçün uyğunsuzdur. Platforma tenderlə bağlı sənədlərə, o cümlədən namizədlərin müraciətlərinə, tender iştirakçılarının təkliflərinə, tender komissiyalarının qərarlarına, müqavilə məlumatlarına və s. çıxışı təmin etmir. Bundan başqa, Azərbaycan Respublikası Hesablama Palatasının dərc etdiyi məlumatlara görə, açıq tenderlər (e-platforma) vasitəsilə həyata keçirilən satınalmaların payı illər ərzində azalıb və 2020-ci il üçün keçirilən açıq tenderlərin ümumi sayının təxminən 30%-ni təşkil edir. Eyni zamanda, bir mənbədən satınalmalar öz payını artıraraq ötən il ümumi dövlət xərclərinin demək olar ki, yarısına çatıb.[60]

2021-ci ildə Azərbaycan qanunvericiliyə edilən dəyişikliklər vasitəsilə prosedurların şəffaflığını artırmaq üçün bir sıra cəhdlər etdi ki, bu da bu təşəbbüsləri güclü şəkildə dəstəkləyən beynəlxalq tərəfdaşlara nikbinlik gətirdi. Bununla belə, indiyədək edilən dəyişikliklər sistemin liberallaşdırılmasına daha çox müsbət təsir göstərsə də, qərarların qəbulu prosesinin şəffaflığı və yekun benefisiar problemlərini həll etməyib. 2021-ci ildə tətbiq edilən dəyişikliklər arasında Avropa şirkətləri üçün ən böyük təsir tenderlərdə iştirak etmək üçün şirkətin yerli qeydiyyatını məcburi şərt edən dəyişiklikdir. Yəni, əgər xarici hüquqi şəxs tenderdə qalib gəlsə, lakin Azərbaycanda daimi nümayəndəliyi yoxdursa və ya vergi uçotu üçün qeydiyyatdan keçmiş daimi nümayəndəliyini yaratmayıbsa, o, dövlət satınalma müqaviləsini imzalaya bilməyəcək.

## QANUNVERİCİLİYƏ DƏYİŞİKLİKLƏR:

27 may 2021-ci il tarixində "Dövlət satınalmaları haqqında" qanuna dövlət satınalmalarının elektron üsullarla həyata keçirilməsini təmin edən vahid internet portalının yaradılması ilə mühüm dəyişikliklər edilib. Dəyişikliklər həmçinin aşağıdakı prosedurları əhatə edib: a) malgöndərənlərin ixtisas uyğunluğunun əvvəlcədən müəyyən edilməsi; b) iştirak haqlarının hesablanması qaydası; c) mikro, kiçik və orta müəssisələrin dövlət satınalmalarına cəlb edilməsi; d) tender komissiyasının tərkibi; və e) tenderin qalibi ilə satınalma müqaviləsinin imzalanması şərtləri.

"Dövlət satınalmaları haqqında" qanuna 3 dekabr 2021-ci il tarixində edilən dəyişikliyə əsasən, qeyri-rezident hüquqi və ya fiziki şəxslərlə (i) tikinti, (ii) tikinti quraşdırma və (iii) istehsal sahələrinin qurulması üzrə dövlət satınalmaları müqaviləsi Azərbaycan Respublikasında daimi nümayəndəlik və ya vergi uçotuna alınmış daimi nümayəndəlik yaratmayan bölmələri olduğu halda bağlanılır.

Bundan əlavə, Azərbaycan Respublikasının Nazirlər Kabineti 20 dekabr 2021-ci il tarixdə "Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və ondan istifadə Qaydası"nı qəbul edib.

**Maliyyə sektorunun gücləndirilməsi və maliyyəyə çıxışın təmin edilməsi** ötən il olduğu kimi, islahat prioritetləri arasında üçüncü yerdə qərarlaşıb və Avropa şirkətlərinin 43%-i (2020-ci ildə 41%) tərəfindən seçilib. 2015-2016-cı illər böhranı zamanı yaşanan şokdan sonra struktur islahatları maliyyə sektorunda əhəmiyyətli irəliləyişlərə səbəb oldu, lakin respondentlər hesab edir ki, o, hələ də prioritetləşdirmə tələb edir. Son illərdə kredit fundamentallarında müəyyən irəliləyişlər olmasına baxmayaraq, 2021-ci ilin noyabr ayı etibarilə sektor Fitch-in Bank Sənayesi Risk İndikatorunda (BIRI) "B" dərəcəsini saxlayır. Depozitlərin dollarlaşma əmsalı 2021-ci ilin 3-cü rübünün sonunda 45%-ə düşüb (2019-cu ilin sonunda 61% və 2020-ci ilin sonunda 57%), lakin hələ də 18%-lik "BB" medianından xeyli yuxarıdır. Ölkənin maliyyə sektoru oliqopolist olaraq qalır və əsasən yerli banklar, o cümlədən əksəriyyəti Azərbaycan hökumətinə məxsus ən böyük bank olan Azərbaycan Beynəlxalq Bankı (ABB) ilə təmsil olunur. Son beş ildə 23 bank problemli kreditlərin (NPL) yüksək olması, likvidliyin olmaması, valyuta çatışmazlığı və aktivlərin keyfiyyətinin aşağı olması səbəbindən bağlanıb. Rəsmi məlumatlara görə, 2021-ci ilin noyabrında NPL səviyyəsi 2020-ci ilin may ayındakı 7,3%-ə və 2019-cu ildəki 8,3%-ə nisbətdə 5,5%-ə qədər azalıb.

Ümumi müsbət tendensiyalara baxmayaraq, sektor 2021-ci ilin oktyabrında 5,7% və 2020-ci ilin dekabrında 2,8% səviyyəsi ilə müqayisədə 2021-ci ilin noyabr ayında 6,2%-ə çatan artan inflyasiya səviyyəsi də daxil olmaqla, pandemiya dövründə qlobal tələtümlara həssas olaraq qalır.[9, 32]

Maliyyə sektorunun artan dayanıqlılığı ilə Avropa şirkətlərinin diqqəti ildən-ilə əlverişli kreditlərin çatışmazlığına doğru yönəlir. Bazarda kifayət qədər istehlak və qısamüddətli kreditlər təklifi olsa da, biznes üçün uzunmüddətli kreditlər az olaraq qalır. Müsahibələr zamanı yerli banklar qeyd edib ki, əmanətlərin əhəmiyyətli hissəsi xarici valyutada saxlanılır. Bu, yerli valyutada uzunmüddətli maliyyələşdirmə üçün risklərin qiymətləndirilməsini çətinləşdirir və nəticədə faiz dərəcələrinin artmasına səbəb olur. Mərkəzi Bankın baza dərəcəsi ilə yenidən maliyyələşdirmə xətləri effektiv alətə çevrilərdi, lakin onlar adətən çox məhduddur və ya mövcud deyil. Həmçinin Mərkəzi Bankda yerli banklara ABŞ dolları likvidliyini uzun müddətə dəyişdirməyə və likvidliyi yerli valyutada uzunmüddətli daha aşağı maliyyələşdirmə tələb edən layihələrə (məsələn, sənaye layihələri) yönləndirməyə imkan verəcək svop həlləri mövcud deyil. Yerli banklar üçün məhdud mərkəzləşdirilmiş resurslar Mərkəzi Bankın inflyasiyaya nəzarət və valyuta məzənnələrinə təzyiqi aradan qaldırmaq üçün siyasi cəhdləri ilə diktə edilib.

Azərbaycanın maliyyə bazarı yerli maliyyələşdirmədən asılı olaraq qalır. Mövcud xarici vəsaitlər əsasən Beynəlxalq Maliyyə İnstitutları (BMİ), o cümlədən Avropa banklarının məqsədyönlü proqramları tərəfindən təmin edilir. AYİB ölkədə ümumi dəyəri 801 milyon avro olan portfeli ilə işləyir. 2021-ci ildə bank 34 milyon avro məbləğində müvafiq İllik Bank İnvestisiyaları (ABI) ilə səkkiz layihəni maliyyələşdirib – hamısı özəl sektorda.[61] AYİB rəqəmsal, inklüziv və yaşıl layihələrə üstünlük verən həm özəl, həm də suveren müştərilərlə işləyir və həm yerli, həm də sabit valyutalarda uzunmüddətli maliyyələşdirmə ilə təmin edir.

Avropa İttifaqı Bankı – AİB Azərbaycan da daxil olmaqla, ŞT regionunda proqramlar üçün məqsədyönlü kreditləşməni təmin edir. Bank Aİ və Azərbaycanın prioritetlərinə uyğun fəaliyyət göstərir, ölkəyə "Avropa komandası" dəstəyini gücləndirir və Avropa-Azərbaycan tərəfdaşlığını genişləndirir. 2021-ci ildə AİB 1,3 milyard avro ilə ŞT ölkələri üzrə sosial və iqtisadi infrastrukturun inkişafına, ətraf mühitin mühafizəsinə, iqlim dəyişikliyinin təsirinin azaldılmasına və uyğunlaşmasına, innovasiyalara, eləcə də KOB-lara dəstəyə üstünlük verib.[23] Avropa bankı tərəfindən təqdim olunan layihələr haqqında ətraflı məlumat Əlavə 2-də verilib.

Şəffaflıq problemləri səbəbindən banklar yeni layihələrə və ya startaplara ehtiyatla qısa müddətli kreditlər və/ və ya girov təminatı ilə paketlər verir. Bir neçə maliyyə institutuna riskləri toplamağa və layihələr üzərində daha yaxşı nəzarəti təmin etməyə imkan verən sindikatlaşdırılmış kreditləşmə Azərbaycanda hələ də inkişaf etməyib. Eyni zamanda, yerli biznes orta hesabla hələ də şəffaf deyil və onların kredit layihələri hazırlamaq imkanları zəif inkişaf edib. Beləliklə, KOBİA və digər biznesi dəstəkləyən təşkilatlar tərəfindən həyata keçirilən KOB-lar üçün maliyyə savadlılığı üzrə təlimlər özəl sektorun effektiv kreditləşdirməyə hazırlığını artırmaq üçün mühüm alət olaraq qalır.

Dövlət Sahibkarlığın İnkişafı Fondu kreditlərin verilməsi üçün bazar mexanizmində mövcud olan azsaylı fondlardan biri olaraq qalır. Qurum güzəştli maliyyələşdirməni təmin edir - sabit faiz dərəcəsi 6%-ə qədər olan uzunmüddətli kreditlər (10 ilə qədər və 5 ilə qədər güzəştli). 2020-ci il ərzində Fonda ümumi məbləği 179,8 milyon AZN (93,2 mln. avro) olan 1072 müraciət daxil olub. Bunlardan 88,5 mln. AZN (45,9 mln. avro) olan 886 müraciət təsdiq edilib.[62] Beləliklə, Fond kiçik kreditləri daha əhəmiyyətli kredit layihələrindən üstün tutmağa davam edir. 2021-ci ilin oktyabr ayında Fond Azərbaycan Biznesinin İnkişafı Fonduna tranformasiyası üçün İqtisadiyyat Nazirliyinin tabeliyində olan Azərbaycan İnvestisiya Şirkəti ilə birləşməyə başladı.[63] Avropa şirkətləri bu islahatlara müsbət yanaşır və nəticədə özəl sektora daha çox maliyyə ayrılmasını gözləyir. Bankların riskini azaltmaq üçün digər mövcud alət dövlət İpoteka və Kredit Zəmanət Fondudur ki, bu Fond hələ bürokratik və vaxt aparan olaraq qalan prosedurların mürəkkəbliyinə görə Avropa şirkətləri tərəfindən effektiv hesab edilmir (Bax şəkil 2.1).

> Layihə üçün kommersiya banklarının məhdud uzunmüddətli maliyyələşdirilməsi ilə bağlı mövcud problemlərdən biri  maliyyə sektorunun tənzimləyicisi olan Mərkəzi Bankın həm də siyasət qurucusu roluna malik olması və hədəflənən inflyasiya, real iqtisadiyyatın təcili ehtiyacları üzərində yerli valyutada uzunmüddətli maliyyələşdirmə tələbi kimi pul siyasəti problemlərini prioritetləşdirməsi ilə bağlıdır."
>
> Avropa maliyyə institutunun idarəedici direktoru



# 3 QLOBAL STRATEJİ PRİORİTETLƏRƏ UYĞUN YERLİ TENDENSİYALAR

## 3.1 DAYANIQLI VƏ YAŞIL İQTİSADİYYAT

Son illər Azərbaycan Aİ-nin regional təşəbbüslərinin dəstəyi ilə dayanıqlı iqtisadiyyat istiqamətində fəaliyyətini davam etdirir. Atılan addımlara beynəlxalq müqavilələrin ratifikasiyası və yaşıl iqtisadiyyatın təşviqi üçün yerli siyasət çərçivəsinin hazırlanması, həmçinin özəl sektorun "yaşıllaşdırılması" üçün qlobal təşəbbüslərin və yerli dəstək mexanizmlərinin işə salınması daxildir. Bu il alternativ enerji mənbələrinə keçidə xüsusi dəstək verilib və ölkədə bir sıra qabaqcıl investisiya layihələrinin icrasına başlanılıb.

Aİ Biznes Mühiti Sorğusunun nəticələri Azərbaycanda Avropa biznes ictimaiyyəti arasında ekoloji mədəniyyət prinsiplərini tətbiq edən şirkətlərin sayının artdığını göstərir. Belə müəssisələrin payı 2021-ci ildə əvvəlki illə müqayisədə 18% artaraq 85%-ə çatıb. Ən məşhur təcrübələr arasında enerji cəhətdən səmərəli texnologiyaların tətbiqi (34%), emissiyaların azaldılması (32%) və təkrar emal oluna bilən materialların istifadəsi (32%) var. Müəssisələrin əksəriyyəti (56%) maliyyə dəstəyini özəl sektorun "yaşıllaşdırılması"nı stimullaşdırmaq üçün ən effektiv mexanizm kimi görür, ondan sonra ekoloji tənzimləmələr (40%) və bazarda yaşıl məhsullara artan tələbat (36%) gəlir.

### Strateji prioritetlər

Azərbaycan daha dayanıqlı iqtisadiyyata doğru bir sıra addımlar atıb. 2016-cı ildə ölkə Paris Sazişini imzaladı və ilk Milli səviyyədə Müəyyəndirilmiş Töhfələrini (MMT) təqdim etdi. MMT-yə 1990-cı il səviyyələri ilə müqayisədə 2030-cu ilə qədər istixana qazları emissiyalarının 35% azaldılması üzrə kəmiyyət hədəfi daxil edilib. 2019-cu ildə Azərbaycan Aİ-nin bir neçə regional təşəbbüslərində iştirak etməklə enerji və ətraf mühit məqsədləri üzrə əməkdaşlığı gücləndirərək Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit Tərəfdaşlığına (E5P) qoşuldu.[17] Dayanıqlı məqsədlər də bu yaxınlarda qəbul edilmiş yerli siyasətlərə daxil edilib. Daxili siyasətin strateji istiqamətlərini müəyyən edən "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri"n beş əsas prioritetindən biri təmiz ətraf mühit və "yaşıl artım" prioritetidir (5.1. Yüksək keyfiyyətli ekoloji mühit və 5.2. Yaşıl enerji məkanı daxil olmaqla). Bu prioritet ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin reabilitasiyasını, istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə kimi tələbləri edir.[13]

2021-ci ilin iyun ayında Azərbaycan EU4Climate təşəbbüsünün dəstəyi ilə iqlim dəyişikliyi ilə bağlı mülahizələrin müvafiq siyasət və tədbirlərə inteqrasiyasını dəstəkləmək üçün 4-cü Milli Kommunikasiya sənədini təqdim etdi. Bundan əlavə, emissiyaların 1990-cı il səviyyələri ilə müqayisədə 2030-cu ilə qədər ən azı 35% və 40%-ə qədər azaldılmasını nəzərdə tutan yenilənmiş MMT hazırlanıb və hökumətə təqdim edilib.[17] 2021-ci ilin dekabr ayında EU4Climate çərçivəsində "Azərbaycanda 2050-ci ilədək az-emissiyalı inkişaf strategiyası"nın ilkin versiyasına dair ictimai konsultasiya həyata keçirildi.

Tədbir Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Milli Hidrometeorologiya Xidmətinin rəhbər işçiləri və nümayəndələrini bir araya gətirib. 2021-ci ilə kimi Azərbaycanın səkkiz şəhəri 2030-cu ilə qədər $CO_2$ emissiyalarını 30%-ə endirmək məqsədi ilə bələdiyyələrə dəstək verən Merlərin Razılaşması təşəbbüsündə iştirak edir.[64]

Ölkə EU4Energy tərəfindən dəstəklənən dayanıqlı enerji yolunda irəliləyir. 2021-ci ildəki təşəbbüs həmin ilin avqustunda təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" yeni qanunun[65] və ilk Enerji Effektivliyinə dair Milli Fəaliyyət Planının hazırlanmasına töhfə verdi. Bu yaxınlarda Aİ tərəfindən maliyyələşdirilən məqsədi binalar üçün tənzimləyici çərçivə və enerji sertifikatı sxeminin işlənib hazırlanması olan **"Azərbaycanda enerji səmərəliliyinin daha da yaxşılaşdırılmasına dəstək"** layihəsindən daha çox dəstəyin gələcəyi gözlənilir. Layihə minimum enerji performansı tələblərinin və həmçinin enerji məhsullarının prioritet qrupları üçün enerji etiketlərinin tətbiqi ilə hökumətə dəstək verəcək.

EU4Environment-in dəstəyi ilə 2021-ci ildə KOB-ların "yaşıllaşdırılması" üçün bir sıra addımlar atıldı. KOBİA ilə əməkdaşlıq çərçivəsində KOB-ların "yaşıllaşdırılması" üçün yeni onlayn özünüqiymətləndirmə aləti istifadəyə verilib. Dairəvi iqtisadiyyat üzərində iş başlanmışdır ki, bu da Azərbaycan KOB-larını ondan təcrübə və faydaları mənimsəməyə yaxınlaşdırır. 2021-ci ilin avqust ayında ölkədə dairəvi iqtisadiyyat və resurs səmərəliliyi ilə bağlı onlayn tədbir keçirildi, ardından ölkənin iki bölgəsində Sənaye Tullantılarının Xəritələşdirilməsi fəaliyyətinə start verildi.[66]

İki milli universitetlə birgə Bakı və Gəncə bölgələrindəki müəssisələr üçün iki Resurs Səmərəliliyi və Daha Təmiz İstehsal (RSDTİ) klubu açılıb. Bundan əlavə, E5P layihəsi çərçivəsində Gəncənin tullantıların idarə olunması sisteminin bərpasında ilk iştirakçısı olması ilə bağlı razılıq əldə olunub. Hazırda KOBİA KOB-ların "yaşıllaşdırılması" potensialının qiymətləndirilməsini və öz fəaliyyətinə müvafiq dəstək tədbirlərinin daxil edilməsini nəzərdən keçirir.[19]

Azərbaycanda bərpa olunan şirin su ehtiyatlarının mütləq ifadədə azalması (2000-2017-ci illər ərzində 9-27% arasında qiymətləndirilir) və əhalinin nəzərəçarpacaq dərəcədə artması (eyni dövrdə təxminən 22%) suyun səmərəli idarə edilməsinin zəruriliyinə diqqəti cəlb etdi. Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair son Tədbirlər Planı 2020-ci ilin iyul ayında qəbul edilib və 2022-ci ili əhatə edir.[67] Hazırda hökumət 2022-ci ildən etibarən yeni strategiya hazırlayır. 2022-ci ilin əvvəlində EU4Environment çətiri çərçivəsində "Su Resursları və Ətraf Mühit Məlumatları" adlı yeni Avropa İttifaqı dəstək proqramı açılacaq. Proqramın büdcəsi 12,75 milyon avro təşkil edir və 2022-2024-cü illər ərzində Avropa İttifaqına üzv dövlətlər Avstriya və Fransa, İƏİT və UNECE Konsorsiumu tərəfindən həyata keçiriləcək. Onun Aİ Yaşıl Razılaşma və DİM-lərə uyğun olaraq Azərbaycan da daxil olmaqla ŞT ölkələrinin gələcək yaşıl transformasiyasına töhfə verəcəyi gözlənilir. Proqram təkmilləşdirilmiş su siyasəti və təcrübələri vasitəsilə şirin su ehtiyatlarından daha dayanıqlı istifadəni dəstəkləmək və bütün təbii ehtiyatların qorunması və daha dayanıqlı istifadə üçün siyasətə uyğun məlumatların daha çox əlçatanlığını təmin etmək üçün etibarlı ekoloji statistikaya çıxışı gücləndirmək məqsədi daşıyır.[19]

Azərbaycanda Aİ təşəbbüslərinin dəstəyi ilə həyata keçirilən layihələr haqqında ətraflı məlumat Əlavə 2-də verilib.

## KOB-ların ekoloji təcrübələri

Ölkənin daha dayanıqlı iqtisadiyyata doğru irəliləməsi üçün özəl sektorun "yaşıllaşdırılması"nın əhəmiyyətini nəzərə alaraq, Aİ Biznes Mühiti Sorğusu Avropa şirkətləri tərəfindən həyata keçirilən ekoloji təcrübələri araşdırmağa davam etdi. Sorğunun cavablarına əsasən, Azərbaycanda ekoloji maarifləndirmə prinsiplərini tətbiq edən Avropa şirkətlərinin payı ötən illə müqayisədə 18% artaraq 85%-ə çatıb. Ən böyük əhəmiyyət enerji cəhətdən səmərəli texnologiyalarının tətbiqi (34%) və emissiyaların azaldılmasına (32%) verilir. 2020-ci ildən etibarən özəl sektor arasında təkrar emal oluna bilən materialların istifadəsi (32%), maarifləndirmə kampaniyalarının dəstəklənməsi (30%) və ətraf mühitin fəaliyyətinin monitorinqi (28%) də artmışdır (Şəkil 3.1).

**ŞƏKİL 3.1.** Azərbaycanda Avropa şirkətləri arasında ekoloji məsuliyyət




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

Özəl sektorun yaşıl transformasiyası üçün müxtəlif stimulların effektivliyini araşdırmaq üçün 2021-ci il sorğusu özəl sektorun "yaşıllaşdırılmasını" stimullaşdıra biləcək ən səmərəli tədbirlər haqqında yeni sual təqdim etdi (Şəkil 3.2). Şirkətlər ən effektiv iki tədbir kimi maliyyə dəstəyi və daha sərt ekoloji tənzimləmələri görür (müvafiq olaraq respondentlərin 56%-i və 40%-i tərəfindən seçilib). Bazarda yaşıl məhsullara artan tələbat başqa bir stimuldur (36%). Digər effektiv tədbirlərə ətraf mühitin idarə edilməsini tətbiq edən şirkətlər üçün tənzimləyici yardım və "yaşıl" dövlət satınalma tələbləri daxildir. Çirklənmənin azaldılması texnologiyaları üzrə pulsuz konsultasiya və ekoloji cəhətdən təmiz texnologiyalar üçün tanınma və mükafatlar hələ də müəyyən dərəcədə təsirli olsa da, özəl sektordan daha aşağı dəyərləndirmə aldı.

## Alternativ enerji mənbələrinə keçidə dəstək

Bir neçə ildir ki, Azərbaycan hökuməti bərpa olunan enerji layihələri üçün hərtərəfli təşviqlər və yeni normativ baza üzərində işləyir. 2021-ci ildə mühüm addım bərpa olunan enerji mənbələrindən istifadə və elektrik enerjisi istehsalı ilə bağlı iki yeni qanunun qəbulu oldu. Növbəti siqnal "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının təqdim edilməsi, avropalı investorların böyük marağına səbəb olan və Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl və alternativ enerji layihələrinin prioritetləşdirilməsi vasitəsilə gəldi (bax. Bölmə 1.3).

Dünya Bankının (DB) məlumatlarına görə, bu gün ölkə günəş və külək enerjisi sahəsində 180 GVt-dan çox potensial gücə malik olsa da, hazırda cəmi 1,3 GVt quraşdırılmış bərpa olunan enerji gücünə malikdir.[10] 2021-ci ildə ümumi dəyəri 500 mln ABŞ dollar olan iki iddialı alternativ enerji layihəsinə start verildi. Yeni layihələr Səudiyyə Ərəbistanı və BƏƏ şirkətləri tərəfindən həyata keçirilən 240 MVt külək və 230 MVt fotovoltik enerji gücündə ölkənin ilkin qurğularının tikilməsini nəzərdə tutur. Bu layihələrin həyata keçirilməsinin ölkənin külək tutumunu dörd dəfə, günəş tutumunu isə yeddi dəfə artıracağı təxmin edilir ki, bu da onun bu sahədə əhəmiyyətli potensialını nümayiş etdirir və 2030-cu ilə qədər bərpa olunan mənbələrinin elektrik enerjisi qarışığındakı payını 30%-ə çatdırmaq kimi rəsmi məqsədə yaxınlaşdırır.[68]

2021-ci ilin may ayında "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" qanun qəbul edilib.[69] Qanun elektrik enerjisinin istehsalında bərpa olunan enerji mənbələrindən istifadənin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. O, həmçinin zəmanətli tarifləri, investorların seçilməsi prosedurunu və lisenziyalaşdırmanı müəyyən edir. Bundan əlavə, Azərbaycanda bərpa olunan enerji mənbələri layihələrində investorlar üçün zəmanətli alış, zəmanətli qoşulma, ötürmə və paylanmada prioritet və uzunmüddətli torpaq icarəsi daxil olmaqla müəyyən güzəştlər təklif olunur.[70]

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun[65] 2021-ci ilin avqustunda qəbul edilib və 2022-ci ilin iyulunda qüvvəyə minəcək. Qanun enerji ehtiyatlarının istehsalı, saxlanması, ötürülməsi, bölüşdürülməsi, satışı və istehlakı sahəsində yaranan münasibətləri tənzimləyir. Yeni qəbul edilmiş qanun enerjidən istifadə və səmərəliliyin daha effektiv ekspertizasının aparılması, Enerji Effektivliyi Fondunun yaradılması, enerji istehlakının etiketlənməsi və ölçülməsi ilə bağlı yeni prosedurların müəyyən edilməsi üçün standartlar və prosedurları müəyyən edir.[71]

ŞƏKİL 3.2. Avropa şirkətləri perpektivindən özəl sektorun "yaşıllaşdırılması"nı stimullaşdıran müxtəlif tədbirlərin səmərəliliyi




MƏNBƏ: Aİ Biznes Mühiti Sorğusu 2021

## 3.2 ÖZƏL SEKTORUN RƏQƏMSALLAŞDIRILMASI

Son illər Azərbaycanın İT infrastrukturunda bəzi təkmilləşdirmələrə baxmayaraq, Avropa şirkətləri özəl sektorda rəqəmsallaşma üçün həlledici amil kimi onun daha da prioritetləşdirilməsini gözləyir. Keçən il olduğu kimi, ən güclü tələb internetin sürətinin və keyfiyyətinin artırılması ilə bağlıdır (respondentlərin 76%-i), sonra internet provayderlərinin şərtləri (48%) və kadrların rəqəmsal bacarıqları (40%) gəlir. Kənd yerləri xüsusi diqqət tələb edir, çünki onlar böyük şəhərlərlə müqayisədə rəqəmsal infrastrukturda nəzərəçarpacaq fərqdən əziyyət çəkir.

Aktiv rəqəmsallaşma ilə birlikdə kibertəhlükəsizlik daha vacib hala gəlib. Hazırda Avropa şirkətləri ölkədə rəqəmsal təhlükəsizliyə neytral yanaşır və dövlət səviyyəsində tədbirlərdən daha çox daxili körpülərə güvənir. Müəssisələr bu aspektin əhəmiyyətini artırdığını görür, onun daha güclü inkişafı və təhlükəsiz rəqəmsal iş üzrə özəl sektorun məlumatlılığının artırılması üçün ehtiyacı vurğulayır.

Rəqəmsallaşma özəl sektor üçün mühüm əhəmiyyət qazanır və onun pandemiyaya dayanıqlılığını artırır. Biznes proseslərinin onlayn şəklə keçirilməsi və elektron ticarətin intensivləşdirilməsi pandemiya ilə bağlı məhdudiyyətlər və iqtisadi inkişafın qeyri-müəyyənliyi zamanı özəl sektorun biznesini davam etdirməsinin ən ümumi yollarından biri olaraq qalır. Dünya Bankının müəssisə sorğularına əsasən, pandemiya Azərbaycanda bütün ölçülü şirkətlər üçün rəqəmsal alətlərdən istifadəni sürətləndirib. Son iki il ərzində Azərbaycanda kiçik müəssisələrin 60%-dən çoxu və orta müəssisələrin 70%-i onlayn fəaliyyətini artırıb.[10] 2020-ci il üzrə Aİ Biznes Mühiti Sorğusunun nəticələrinə əsasən, keçən il Azərbaycanda fəaliyyət göstərən Avropa şirkətlərinin 58%-i pandemiya məhdudiyyətlərinə cavab olaraq rəqəmsallaşma prosesini artırıb.[44] 2021-ci ildə Mərkəzi Bank ölkədə elektron ticarətin davamlı artdığını bildirdi. Yanvar-noyabr aylarında 2020-ci ilin eyni dövrü ilə müqayisədə 78% artaraq 6,1 mln. AZN-ə çatıb. (3,2 mln. avro).[32]

Son onilliklər ərzində Azərbaycan hökuməti əsas prioritetləri təsvir edən və daha ətraflı planlaşdırma sənədləri ilə davam etdiriləcək "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetləri" sənədində[13] əks olunduğu kimi, rəqəmsal iqtisadiyyatın inkişafını prioritetləşdirib. Rəqəmsal iqtisadiyyatın böyüməsi ilə İT infrastrukturunun keyfiyyəti mühüm əhəmiyyət kəsb edir və rəqəmsal infrastruktur, bacarıqların mövcudluğu və ölkədəki tənzimləyici çərçivə də daxil olmaqla bir neçə əsas komponentdən ibarətdir. Keçən ilki kimi builki Aİ Biznes Mühiti Sorğusunda da İT infrastrukturuna həsr olunmuş bir neçə sual yer alır. Hər iki ildə Avropa şirkətləri rəqəmsal infrastrukturla bağlı amilləri şərtsiz olaraq prioritet kimi seçir. İnternetin keyfiyyəti və sürəti respondentlərin 76%-i tərəfindən seçilib və 2020-ci ilin nəticələri ilə müqayisədə 2021-ci ildə internet provayderlərinin şərtləri Avropa şirkətlərinin demək olar ki, yarısı tərəfindən prioritetləşdirib (Şəkil 3.3).

2016-cı ildə islahatlara başlandıqdan sonra sabit genişzolaqlı internet abunələrinin sayı cüzi dəyişərək 2016-cı ildəki 18,5 ilə müqayisədə 2020-ci ildə hər 100 nəfərə düşən say 20-yə çatıb[72]. Həmin dövrdə əhalinin hər 100 nəfərinə düşən genişzolaqlı internet istifadəçilərinin sayı 72-dən 83-ə yüksəlib. Orta tarif dəyərinin 20 saat üçün 2016-cı ildəki 1,2 AZN-dən 2020-ci ildə 0,9 AZN-ə qədər enməsi ilə genişzolaqlı internetə çıxış da daha əlverişli oldu.[5] Dünyada yükləmə və endirmə sürətini avtomatik izləyən müstəqil Speedtest Qlobal İndeksinə əsasən, Azərbaycanda sabit genişzolaqlı internetin orta sürəti 2021-ci ildə COVID-19 pandemiyasının başlanğıcı ilə müqayisədə 9% artaraq 17-18 Mbit/s təşkil edib və ölkəni 178 ölkə arasında 122-ci yerə çatdırıb. Müqayisə üçün Rusiyada bu göstərici 63-64 Mbit/s (50-ci yer),

**ŞƏKİL 3.3.** Avropalı investorlar perspektivindən prioritetləşdirilən İT infrastrukturu aspektləri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

Ukraynada 52 Mbit/s (57-ci yer), Ermənistanda 34-35 Mbit/s, (88-ci yer), Türkiyədə 26-27 Mbit/s (103-cü yer) və Gürcüstanda 20 Mbit/s-ə (116-cı yer) çatır.[73]

2020-ci il sorğusu ilə müqayisədə bu il işçilərin İT bacarıqları daha vacib olub (Şəkil 3.3). Təhsil sistemində aparılan islahatların nəticəsi kimi rəqəmsal bacarıqlar Milli Kvalifikasiyalar Çərçivəsi (MKÇ), ümumi təhsil qanunvericiliyi və PTT üzrə Dövlət Standartları daxil olmaqla, peşə təhsili və ömürboyu təhsil üçün əsas bacarıqlardan biri kimi mövcud qanunvericiliyə daxil edilib.[74] Əhali arasında rəqəmsal bacarıqlara dair etibarlı məlumatların olmamasına baxmayaraq, Azərbaycanda kompüterdən istifadə edən işçilərin xüsusi çəkisi son beş il ərzində cəmi 5% artıb və 2020-ci ildə insanların təxminən 35%-i iş yerində kompüterdən istifadə edir. İşçilərin daha da kiçik bir hissəsi (təxminən 30%) internetdən istifadə edir.[5]

Bir çox respondent rəqəmsallaşma və İT infrastrukturunda kənd-şəhər arasında əhəmiyyətli fərq olduğunu bildirdi (Şəkil 3.4). Bakıda və digər iri şəhərlərdə respondentlərin təxminən 60%-nin, digər regionlarda isə yalnız 40%-ə yaxının internetə çıxışı var.[5] Eyni zamanda, bu fərq investorların əksəriyyətinə təsir göstərmir, çünki Bakı ölkənin əsas biznes mərkəzi olaraq qalır. Bununla belə, regional inkişafın gələcək prioritetləri bu asimmetriyanın azaldılmasını və regionlarda rəqəmsal infrastrukturun təkmilləşdirilməsini tələb edəcək.

Biznesin rəqəmsallaşdırılması ilə birlikdə ölkədəki elektron resursların əksəriyyətinin işinə təsir edən çoxsaylı kiberhücumlar ilə izlənilən kibertəhlükəsizlik 2020-ci ildə Azərbaycan və Ermənistan arasında hərbi münaqişə zamanı mühüm oldu və xüsusi diqqət çəkdi. Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) hazırladığı Qlobal Kibertəhlükəsizlik İndeksinə (QKİ) görə, Azərbaycan 2020-ci ildə qonşu Gürcüstan və İrandan daha yaxşı olmaqla 15-ci yerə yüksələrək 194 ölkə arasında 40-cı yeri tutub. İndeks kibertəhlükəsizliyin səviyyəsini 5 əsas istiqamət üzrə – hüquqi çərçivə, texniki təlim, təşkilati məsələlər, insan resursları, o cümlədən kommunikasiya və əməkdaşlıq üzrə qiymətləndirir.[72] Avropa şirkətləri rəqəmsal işləri baxımından Azərbaycanda özlərini "neytral" olaraq ifadə edir. (Şəkil 3.5.). Ancaq onlar milli səviyyədə həyata keçirilən tədbirlərə deyil, şirkət daxili kibertəhlükəsizlik körpülərinə çox güvənir.

Hazırda heç bir dövlət siyasəti sənədi kibertəhlükəsizlik sahəsində prioritetləri müəyyən etmir və bu mövzuda KOB-lar arasında maarifləndirmə üçün sistemli proqramlar mövcud deyil. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən və ya özəl sektorun təşəbbüsü ilə əhalinin və özəl sektorun məlumatlılığını artırmaq və bacarıqlarını inkişaf etdirmək məqsədilə bəzi təşəbbüslər həyata keçirilir (yəni, Kiber Akademiya və Kibertəhlükəsizlik Həftəsi).

Regional **EU4Digital** təşəbbüsü[ii] 2019-cu ildən başlayaraq özünün mərkəzi layihəsi olan EU4Digital proqramı vasitəsilə Azərbaycanda rəqəmsal transformasiyaya dəstək verir. Rəqəmsal bacarıqların artırılması əsas prioritetlər arasında qalır və rəqəmsal bacarıqların ölçülməsi və müvafiq strategiyaların həyata keçirilməsinə dəstək daxildir. Bu il ölkədə mühüm addım rəqəmsal bacarıqları daha da dəstəkləmək məqsədi daşıyan Azərbaycanda Rəqəmsal Bacarıqlar və Məşğulluq üzrə Milli Koalisiyasının yaradılması oldu. Təşəbbüs həmçinin Azərbaycanda etimad xidmətlərinin qarşılıqlı tanınmasına və startap ekosisteminin gücləndirilməsinə ölkənin hazırlığının artırılması üzrə işləri də əhatə edir.

Təşəbbüs Azerexport.az ilə əməkdaşlıq çərçivəsində 2021-ci ilin may-iyun aylarında başlamış sərhədlərarası pilot layihə vasitəsilə elekron ticarətin inkişafına töhfə verir. Elektron ticarət həlli Azərbaycanın KOB-larına öz məhsullarını Almaniyada eBay bazarında satmağa imkan verən **"virtual anbar"** hazırlayır. Bu həllin Azərbaycanın müxtəlif regionlarında fəaliyyət göstərən sahibkarlar üçün məhsul çeşidini Avropa bazarlarına və onun hüdudlarından kənarda tanıtmaq və genişləndirmək üçün yeni alət olacağı gözlənilir.

Son illər ərzində EU4Digital tərəfindən Aİ təcrübəsinə əsaslanan Regional Rouminq Sazişi (5 il ərzində regionda rouminq qiymətlərini demək olar ki, 90% aşağı salacağı gözlənilir), gələcək 5G texnologiyası üçün ŞT ölkələri və Aİ arasında radiotezlik spektr ehtiyatlarının uzlaşdırılmasına yönəlmiş Radiotezlik spektri üzrə Regional Saziş kimi ŞT regional sənədlərinin hazırlanmasına davamlı dəstək verilib.[20]

**ŞƏKİL 3.4.** Avropa şirkətlərinin şəhər və kənd yerlərində İT infrastrukturunun keyfiyyətinə dair baxışları




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

**ŞƏKİL 3.5.** Avropa şirkətlərinin Azərbaycanda kibertəhlükəsizliyə dair fikirləri




**MƏNBƏ:** Aİ Biznes Mühiti Sorğusu 2021

[ii] EU4Digital təşəbbüsünün layihələri və fəaliyyəti barədə ətraflı məluma www.eufordigital.eu saytında mövcuddur.

# 3.3 QADINLAR VƏ KİŞİLƏR ÜÇÜN İQTİSADİ İMKANLARA BƏRABƏR ÇIXIŞ

Azərbaycanın müxtəlif genderlər üçün iqtisadi imkanlara bərabər çıxışını təmin edən hərtərəfli qanunvericiliyinə baxmayaraq, praktikada qadınlar bir sıra mühüm göstəricilərə görə hələ də kişilərdən geri qalır. Dağ mədən, tikinti və nəqliyyat kimi ölkə üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi sektorlarda qadınlar ümumi işçilərin 15%-dən çox olmayan payı ilə azlıqları təmsil edir. Ölkədə oxşar iş üçün maaş fərqi təxminən 25%-ə çatır və orta hesabla qadınların təxmini qazancı kişilərlə müqayisədə 45% azdır.

2021-ci il sorğusu cavab verən şirkətlərin komandaları arasında qadınların təxminən 40% təşkil etdiyini göstərir. Bundan əlavə, Avropa şirkətləri yerli şirkətlərdən daha çox qadın işçiləri öz müəssisələrində işə götürməyə meyllidir. Onların əksəriyyəti administrativ iş, satış, marketinq və orta səviyyəli idrarətməyə cəlb ounur. Cavab verən şirkətlərin təxminən 20%-də qadınlar yuxarı səviyyəli idarəetmədə də təmsil olunur.

Qadınların müdafiəsi və gender bərabərliyi müxtəlif hüquqi aktlarda və Azərbaycan Respublikasının Konstitusiyasında (2006) təmin edilir.[54] BƏT-in "Əməyin bərabər ödənişi haqqında"  Konvensiyası, BƏT-in “Ayrı-seçkilik (məşğulluq və peşə sahəsində) haqqında” Konvensiyası, BMT-nin “Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında” Konvensiyası və digərləri daxil olmaqla çoxsaylı beynəlxalq konvensiyaları ratifikasiya edib. Yerli çərçivəyə “Gender (kişi və qadınların) bərabərliyinin təminatı haqqında” qanun (2006)[75], Azərbaycanda gender-əsaslı cins seçimi ilə mübarizə sahəsində tədbirlər planı (2020)[76] və digər strateji siyasət sənədləri daxildir.

Bununla belə, bu qanunvericilik çərçivələri hələ nəzərəçarpacaq nəticələr verməyib və ölkə qadınların iqtisadi imkanlara bərabər çıxışı baxımından hələ də regional qonşularının əksəriyyətindən geri qalır. Dünya İqtisadi Forumunun 2021-ci il üzrə “Qlobal Gender Fərqi” Hesabatına (GGGR) əsasən, ölkə Şərqi Avropa və Mərkəzi Asiya regionunda gender fərqinə görə 26 ölkə arasında 23-cü yerdə qərarlaşıb.[77] Dayanıqlı İnkişaf Hesabatı ölkələrin DİM-lərə doğru irəliləyişini izləyir, Azərbaycanda Gender Bərabərliyi məqsədinə dair 4 göstəricidən 3-də durğunluq olduğunu bildirir. [78]

